www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 iyun 2015-ci il Çərşənbə axşamı № 118 (6146) Qiymət 40 qəpik

**Xəbər**

## İspan qripi 33 milyon insanı öldürə bilər

yazısı səh.13-də

**Gündəm**

### Rusiya Qarabağda qoşun yerləşdirmək istəyir



Üç prezidentin iyunun 12-də Bakıdakı görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və ortaq sülhməramlı qüvvələrin yaradılması mövzusu müzakirə oluna bilər

yazısı səh.9-da

### Mərkəzi Bank ikinci devalvasiyaya gedəcəkmi...

yazısı səh.3-də

*Natiq Miri:*

### "Parlamentin sifəti xeyli dəyişəcək"

yazısı səh.5-də

### AMİP-də sədrə qarşı narazılıq yarandı

yazısı səh.6-da

### Cəlal Əliyev xəstəxanaya yerləşdirildi

yazısı səh.2-də

### Polad Bülbüloğlu Söyün Sadıqovun ittihamlarına cavab vermək istəmir

yazısı səh.6-da

### "Oyunlar zolağı"nda çıxarılan oyun...

yazısı səh.10-da

### Putinin verdiyi mükafat Şeyxi qoruya biləcəkmi?

yazısı səh.6-da

### ATƏT sədrinin Bakı səfərində Qarabağ və girovlar açıqlaması

yazısı səh.12-də

### Türkiyədən seçkiqabağı giley və sevgi mesajı

yazısı səh.10-da

### "Sədərək" və "Binə" ticarət mərkəzləri qapana bilər

yazısı səh.14-də

### Qəbul imtahanlarının biabırçı nəticələri...

yazısı səh.13-də

## YAP seçki taktikasını da, siyahısını da dəyişir

# NAZİR ÖVLADLARI PARLAMENTƏ GƏLİR... - ŞOK GƏLİŞMƏ

Hakim partiya deputat olmaq istəyənlərin bəzilərini seçkiyədək pressinq altında saxlama niyyəti güdür; Siyavuş Novruzov "Yeni Müsavat"ın aylar öncə yazdıqlarını təsdiq etdi; yeni siyahıda oliqarxlara yer olmayacaq...



yazısı səh.5-də

# Qaz müharibəsində yeni mərhələ başlayır - Bakı ön cəbhə oldu

TANAP və TAP növbəti sınaq qarşısında; Rusiya bu müharibədə son "kozır"ını da işə salıb; Azərbaycan prezidentinin narahatlığı boşuna deyilmiş; Bakıda gözlənilən Əliyev-Putin-Ərdoğan "üçlü görüşü" əsas suala aydınlıq gətirə bilər...

yazısı səh.8-də



### Nərgiz Yaqublunun qırx mərasimi keçirildi

yazısı səh.3-də



### Ziya Məmmədov oğlu haqda "Yeni Müsavat"a danışdı

yazısı səh.4-də



Aleksis Şahtaxtinski

### ATƏT rəsmisi İlham Əliyevlə şəkil çəkdirdiyinə görə işdən qovuldu

yazısı səh.10-da

**2 iyun 2015**



## Prezident və xanımı yeni bulvarın açılışında...

**Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva Bakı Ağ Şəhər bulvarının açılışında iştirak ediblər. İlham Əliyev bulvarın rəmzi açılışını bildirən lenti kəsib. Dövlət başçısı burada istirahət edən sakinlərlə görüşüb.**

Bu bulvardakı “Bulvar Hotel”dən Bayıl bulvarındakı Bakı Su İdmanı Sarayının qarşısınadək xüsusi qatarlar da hərəkət edəcək. Qatarların bulvar boyu bir neçə yerdə dayanacağı olacaq.

Prezidentin sərəncamı ilə inşa olunan Bakı Ağ Şəhər bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 33 hektardır. Burada gələcəkdə uşaq kinoteatrının inşası da nəzərdə tutulub. Yeni bulvarda basketbol, voleybol və iki futbol meydançası, ümumilikdə dörd yeni meydança inşa edilib. Bundan başqa, açıq havada yaradılan trenajor sahəsi də istirahətə gələnlərin ixtiyarına veriləcək. Ağ Şəhər bulvarında 2 kilometr uzunluğu olan velosiped yolu yaradılıb.

## Bakıda avtobuslarla bağlı daha bir yenilik...



**İyunun 1-dən bölgələrdən gələn maşınların da paytaxta daxil olmasına qadağa qoyulub. ANS TV-nin məlumatına görə, bununla bağlı artıq Nəqliyyat Nazirliyi də gücləndirilmiş iş rejiminə keçib. Sərnişinlərin rahat və maneəsiz paytaxta daxil olmaları üçün həmin istiqamətdə marşrutların sayı artırılıb.**

Nəqliyyat Nazirliyi onu da açıqlayıb ki, əgər ehtiyac yaranarsa, o zaman əlavə avtobuslar da xəttə buraxılacaq.

“Qərb istiqamətindən şəhərə daxil olan avtobuslara gəlincə, hazırda bu istiqamətdə - 124, 195, 197 və 146 saylı maşrut avtobusları fəaliyyət göstərir. Belə ki, 124 saylıda 18, 195 saylıda 9, 197 və 146 saylıda hər birində 8 ədəd olmaqla ümumilikdə 45 avtobus xətdə sərnişinlərə xidmət göstəriri”, - deyə nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Namiq Həsənov bildirib.

## Salyanda dəhşətli qəza; 3 nəfər ölüb

**Salyanda ağır yol qəzası baş verib. APA-nın Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən verdiyi xəbərə görə, Ələt-Astara yolunun 35-ci kilometrliyində Salyan rayonu ərazisində “KAMAZ” markalı yük avtomobili ilə “Mercedes” markalı minik avtomobili toqquşub.**

Hadisə yerinə cəlb olunmuş Fövqəladə Hallar Nazirliyinin xilasetmə qüvvələri “Mercedes” markalı avtomobildə sıxılmış vəziyyətdə qalmış 1961-ci il təvəllüdlü Əliyev Sakit Davud oğlunun, 1994-cü il təvəllüdlü Sadıqova Xədicə Vüqar qızının və 1995-ci il təvəllüdlü Sadıqova Səbinə Vüqar qızının cəsədlərini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

## Bakıda iki avtobus toqquşub, xəsarət alanlar var

**Bakıda iki marşrut avtobusu toqquşub. APA-nın məlumatına görə, hadisə Nizami rayonu, M. Abbasov küçəsi 1 ünvanında qeydə alınıb. 1967-ci il təvəllüdlü Yaşar Qərib oğlu Zeynalovun 171 saylı xətt üzrə idarə etdiyi “Daevoo” markalı, 10 TC 812 dövlət nömrə-nişanlı marşrut avtobusu Bakı şəhər sakini, 1980-ci il təvəllüdlü Ramiz Tofiq oğlu Qasımovun idarə etdiyi “Isuzu” markalı, 90 GA 923 dövlət nömrə nişanlı sərnişin avtobusu ilə toqquşub. Nəticədə “Daevoo” markalı avtobusda olan sərnişinlərdən - Kəmalə İsmayılova, Əfsanə Cəfərova və Mətanət Həsənova xəsarətlə xəstəxanaya yerləşdiriliblər. Faktla bağlı araşdırma aparılır.**

“Elm” tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Elçibəyin qardaşının pulunu mənimsəyən sahibkar azadlığa buraxıldı

**Eks-prezident Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevi aldadaraq pulunu mənimsəyən iş adamı Ələkbər Hüseynov azadlığa buraxılıb. Bu barədə müsavat.com-a vəkil Səməd Vəkilov məlumat verdi: “Mayın 20-də Yasamal Rayon Polis İdarəsi tərəfindən saxlanılan Ə.Hüseynovun apelyasiya şikayətinə baxılıb. Bakı Apelyasiya Məhkəməsinin hakimi Rizvan Səfərov iş adamı Ələkbər Hüseynov barəsində seçilmiş həbs-qətimkan tədbiri haqqında təqdimatı rədd edərək, onu sərbəst buraxıb”.**



Zərərçəkmişin nümayəndəsi Müzəffər Məmmədlinin hüquqlarını müdafiə edən hüquqşünas Səməd Vəkilov bildirib ki, Ələkbər Hüseynovu himayə edən şəxslər onu məsuliyyətdən yayındırmağa çalışırlar: “Lakin bu mümkün olmayacaq. Həmçinin hər iki hakimin barəsində Məhkəmə Hüquq Şurasına müraciət ediləcək”.

Qeyd edək ki, iş adamı Ə.Hüseynov Bakıda çoxmərtəbəli bina inşa edən sahibkarlardan biridir. O, mərhum prezident Heydər Əliyev tərəfindən Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevə hədiyyə edilmiş torpaq sahəsini Müzəffər Məmmədlinin (Almurad Əliyevin qohumu) etibarından sui-istifadə edərək alıb və ona vəd edilmiş əmlakları bir neçə adama satıb. Barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə cinayət işi başlanan Ələkbər Hüseynov bir müddət istintaqdan yayınmağa nail olsa da, mayın 20-də Yasamal Rayon Polis İdarəsi tərəfindən saxlanılıb. Yasamal Rayon Məhkəməsinin hakimi İlahə Abbasova prokurorluğun Ələkbər Hüseynov barəsində həbs qətimkan tədbiri seçilməsinə dair təqdimatını rədd edərək, mayın 22-də onu azadlığa buraxıb. Lakin Yasamal Rayon Prokurorluğu tərəfindən İlahə Abbasovanın qərarı əsassız hesab edilib və ləğv edilməsi ilə bağlı protest verilib və o yenidən həbsə alınıb. Bunun ardınca, Bakı Apelyasiya Məhkəməsinin hakimi Rizvan Səfərov iyunun 1-də Ə.Hüseynov barəsində həbs-qətimkan tədbiri seçilməsi ilə bağlı Yasamal Rayon Prokurorluğunun təqdimatını rədd edərək iş adamını azadlığa buraxıb.



## Cəlal Əliyev xəstəxanaya yerləşdirildi

**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü, millət vəkili, akademik Cəlal Əliyev səhhətində yaranan ciddi problemlə bağlı Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib.**

“Qafqazinfo” arqument.az-a istinadən xəbər verir ki, xəstəxananın növbətçi hissəsi xəbəri təsdiqləyib və qeyd ediblər ki, C.Əliyevin vəziyyəti ağır deyil: “Cəlal Əliyev bu gün xəstəxanaya yerləşdirilib. Hazırda vəziyyəti normaldır. Narahatlığa heç bir əsas yoxdur”.

## “Saakaşvilinin ekstradisiyası ilə bağlı hüquqi şanslar heçə enib”

**“Mixail Saakaşviliyə Ukrayna vətəndaşlığının verilməsi onun Gürcüstana ekstradisiyası ilə bağlı hüquqi şansları heçə endirib”.**

APA-nın TASS-a istinadən verdiyi məlumata görə, bunu Gürcüstanın ədliyyə naziri Teya Tsulukiani bəyan edib.

“Cinayət hüququ baxımdan biz anlamalıyıq ki, Ukrayna Konstitusiyası öz vətəndaşlarının digər ölkələrə ekstradisiyasına qadağa qoyur. Müvafiq prosedurlar bitənədək Saakaşvili hələ də Gürcüstan vətəndaşı olaraq qalır. Lakin faktiki olaraq o, artıq digər ölkənin vətəndaşıdır”, - deyə o vurğulayıb.



Ülkər Kazımova

## AXCP-dən daha bir istefa: “Tüpürüm sizin partiyanıza...”

**AXCP Nəsimi rayon şöbəsinin üzvü Ülkər Kazımova ona qarşı haqsızlıqlara etiraz olaraq partiyadan istefa verib. Publika.az xəbər verir ki, Ü. Kazımova AXCP üzvü Gülnarə Akifqızının onu şantaj etdiyini bildirib: “Son bir neçə gündür Gülnarə Akifqızının mənə qarşı etdiklərinə görə çox insanlardan iradlar aldım.**

AXCP-nin rəsmi olaraq Nəsimi şöbəsinin üzvü olsam da iradların hamısını öz əqidədaşlarımdan - cəbhəçilərdən aldım. Biri dedi ki, sənin Gülnarə ilə belə qırğınların partiya adına ləkədir. Biri dedi ki, Əli Kərimlinin nüfuzuna xələl gətirir. Axırda hamısı dedi ki, yalandan AXCP üzvü olmadığımı deyim. Lakin heç biri maraqlanmadı ki, sən bu partiyanın üzvüsən, problemin nədir? Belə çıxır ki, bunları üzvlərin problemi yox, partiyanın adı, xüsusilə də Əli Kərimlinin şəxsi mənafeyi, adı maraqlandırır”.

Daha sonra Ü. Kazımova Əli Kərimliyə sərt şəkildə müraciət edərək partiyadan istefa verdiyini bəyan edib.

O, “Tüpürüm sizin partiyanıza” deyərək, AXCP-ni və Əli Kərimlini şəxsi mənafelərini güdməkdə ittiham edib.

Qeyd edək ki, son günlər AXCP üzvü Gülnarə Akifqızı Ü.Kazımovanın saxta profillər adı altında qeyri-əxlaqi hərəkətlər etdiyini iddia edirdi.

## Moskvada azərbaycanlı taksi sürücüsü öldürüldü

**Moskva vilayətində 48 yaşlı azərbaycanlı odlu silahdan qətlə yetirilib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, hadisə mayın 30-da Moskva vilayətinin Krasnoqorsk rayonunda baş verib.**

Gürcüstan vətəndaşı, milliyyətcə azərbaycanlı olan Qurban Mirzə oğlu Batırxanov “MsDonalds” restoranından çıxıb şəxsi avtomobilinə tərəf gedərkən ona taksi yaxınlaşıb. Taksidə olan killer “Makarov” tapançasından Qurban Batırxanova 7 dəfə atəş açıb. Sonra taksi hadisə yerindən uzaqlaşıb. Qurban Batırxanov hadisə yerindəcə ölüb.

Hüquq-mühafizə orqanlarının apardığı araşdırmalar nəticəsində məlum olub ki, Qurban Batırxanov qətlə yetirildiyi məkanın yaxınlığında yaşayıb. Onun rəsmi olaraq heç yerdə işləmədiyi, qanunsuz taksi fəaliyyəti ilə məşğul olduğu bildirilir. Qurbanın məhz bu fəaliyyətinə görə rəqibləri tərəfindən qətlə yetirildiyi güman olunur.

Faktla bağlı Rusiya Federasiyası Cinayət Məcəlləsinin qətl və qanunsuz odlu silah gəzdirmə maddələri cinayət işi açılıb, araşdırma aparılır.



## İlham Rəhimovun İtaliyada kitabı çap olundu

**Azərbaycanın əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor İlham Rəhimovun Moskvada rus dilində çap olunmuş “Flosofiya prestupleniya i nakazaniya” (“Cinayət və cəzanın fəlsəfəsi”) adlı növbəti kitabı beynəlxalq hüquq aləmində geniş maraq doğurduğundan, italyan hüquqşunaslarının təşəbbusu ilə İtaliyanın Turin şəhərində çap olunub.**

Musavat.com-a verilən məlumata görə, nəfis üslubda nəşr olunmuş kitabda cinayət hüququnun təməl problemlərindən bəhs olunur. Müəllif cinayətin mənbəyinə və səbəblərinə, eləcə də cəzanın məzmununa fəlsəfi mövqedən yanaşıb.

Kitab hüquq fakültələrinin müəllimləri, aspirantlar və tələbələr, eləcə də cinayət hüququ sahəsində ixtisaslaşmış hüquq-mühafizə orqanları işçiləri, nəzəriyyəçilər üçün nəzərdə tutulub. Nəşrdən həmçinin sosioloqlar, psixoloqlar və cinayətkarlıqla mübarizənin aparılmasına maraq göstərən hər kəs yararlana bilər.

Eyni zamanda qeyd edək ki, bu ilin payızında İtaliyanın paytaxtı Roma şəhərində kitabın təntənəli təqdimatı olacaq.

❑ Musavat.com

## Məşhur hava yolları şirkəti iflas etdi

**Malayziya Hava Yolları iflasa uğrayıb. Lent.az-ın Türkiyə mətbuatına istinadən məlumatına görə, hava yolları şirkətinin yeni idarə heyətinin sədri Kristoph Mueller keçirdiyi mətbuat konfransında batdıqlarını rəsmən elan edib.**

Qeyd edək ki, keçən il Malayziya Hava Yollarına aid “Boening777" tipli təyyarə 239 sərnişinlə birlikdə okeana düşmüşdü. Hadisədən sonra şirkətin səhmlərinin qiyməti kəskin şəkildə düşmüşdü.

## Magistraturaya qəbul olmuş bakalavrların qeydiyyat müddəti dəyişdirilib

**Azərbaycanın regionlarında yerləşən ali təhsil müəssisələrində yekun dövlət attestasiyası iyun ayında keçirildiyinə görə ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul olan bakalavrların qeydiyyat müddəti dəyişdirilib.**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından ANS PRESS-ə verilən məlumata görə, həmin bakalavrların qeydiyyatı 2015-ci il iyunun 29-dan iyulun 10-dək (şənbə və bazar günləri istisna olmaqla) aparılacaq. Bakalavrlar göstərilən müddətdə tələb olunan sənədləri təqdim etməklə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçməyən bakalavrlar qəbul olanlar siyahısından xaric ediləcəklər.

Boş qalan plan yerlərinin elan olunması və həmin yerlərə müsabiqənin keçirilməsi avqust ayında nəzərdə tutulur.

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Tofiq Yaqublu türmədə qızının qırx mərasimini keçirdi

## "Burada özünə qapanmaq, Nərgizi xatırlayaraq için-için ağlamaq üçün heç bir şərait yoxdur..."

**13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən siyasi məhbuslar iyunun 1-də Nərgiz Yaqublunun xatirəsini anıblar. Bu barədə siyasi məhbus Tofiq Yaqublunun qızı Nigar Yaqublu sosial şəbəkədə məlumat verib.**

Onun yazdığına görə, mərhumənin qırxında siyasi məhbuslar Əli İnsanov, Anar Məmmədli, Pərviz Həşimli, Əbdül ehsan süfrəsi açıblar. Ailəsi ilə telefon əlaqəsi yaratmış Tofiq Yaqublu bildirib ki, həbsxana şəraitində ötən 40 günü çox çətinliklə yola verib: "Atam dedi ki, "burada özünə qapanmaq, Nərgizi xatırlayaraq için-için ağlamaq üçün heç bir şərait yoxdur. Dar bir ərazidə sayı həddən artıq çox olan məhbusların paylaşdığı sakit guşənin olmadığı şəraitdə belə ağır dərdi yaşamaq çox çətindir. Məni 7 günlüyə dəfn mərasiminə buraxdıqda rəsmilər bunu ölkənin birinci şəxsinin və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin böyük lütfkarlığı kimi təqdim etdilər. Dəfndən qayıdandan sonra həbsxana rəhbərliyindən xahiş etdim ki, heç olmasa gecələr yerimdə uzandığım zaman sakit bir şəraitdə Nərgizimi düşünmək, onun haqqında xəyallara dalmaq üçün daha az məhbusun yaşadığı, nisbətən kiçik otaqlardan birinə keçirsinlər. Çünki 120 nəfərin yaşadığı dar barakda siqaret çəkənlərin, bütün gecə laqqırtı vuranların, söyüş söyənlərin əlindən hətta yuxuya getməyin özü əzablı işdir. Üstəlik də astma xəstəliyim belə şəraitdə tez-tez fəallaşır. Həbsxana rəhbərliyi bildirib ki, istismar tipli hissəni ancaq Nərgizin qırxı gününədək balaca, nisbətən səliqəli və siqaret çəkilməyən otağa köçürə bilərik. Nərgizin qırxı çıxdı və məni köhnə baraka qaytardılar. Halbuki mərhəmətdən danışırlar, ancaq sadə məişət məsələsini həll etmək mümkün olmayan problemə çevirdilər. Özü də münasib otaqlarda boş yerlərin sayı kifayət qədər çox ola-ola. Buna da dözərik..."

❑ SEVİNC






# Nərgiz Yaqublunun qırx mərasimi keçirildi

## Mərhumun atasına qızının yas məclisində iştirak etməyə icazə verilmədi



İyunun 1-də Müsavat başqanının həbsdəki müavini Tofiq Yaqublunun qızı, mərhum əməkdaşımız Nərgiz Yaqublunun qırx mərasimi keçirildi. Yas mərasimində ölkə müxalifətinin tanınmış simaları - MSDM rəhbəri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı və partiya funksionerləri, eləcə də digər müxalif qurumların rəhbərləri, mərhumun yaxınları və dostları iştirak edirdilər.

Qırx məclisi Qaraçuxur qəsəbəsində yerləşən "Nuray" şadlıq sarayının yaxınlığında yerləşən mərasim evində təşkil olunmuşdu. Saat 13:00-dan etibarən həmin əraziyə insan axını başladı. Gələnlər mərhumun yaxınlarına başsağlığı verir, onların dərdlərinə şərik olduqlarını bildirirdilər.





Ehsan süfrəsindən sonra iştirakçılar mərhumun məzarını ziyarət etdilər. Onun ruhuna dualar oxundu, fatihə verildi, məzarı önünə gül-çiçək dəstələri qoyuldu.

Qızının yas mərasimində Tofiq Yaqublu iştirak etmirdi. Üç gün öncədən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə müraciət edilməsinə baxmayaraq, vicdan məhbusuna qızının yas mərasimində iştirak etməyə imkan verilməmişdi.

Xatırladaq ki, Nərgiz Yaqublu aprelin 23-də Rusiyanın Tomsk şəhərində, müalicə olunduğu xəstəxanada vəfat etmişdi.

❑ Cavanşir ABBASLI
Fotolar müəllifindir

# Mərkəzi Bank ikinci devalvasiyaya gedəcəkmi?

## Ekspertlər fərqli düşünür; **Vüqar Bayramov:** "Dolların bahalaşması təkcə daxili faktorlarla bağlı deyil"

**Azərbaycan mətbuatı Avropa Oyunlarından və parlament seçkilərindən sonra baş verəcəyi gözlənilən növbəti devalvasiyadan yazır. İddialara görə, Mərkəzi Bank hazırda manatı saxlamaq üçün ayda 1 milyard 500 min xərcləyir. Əgər neftin qiyməti ilə bağlı durum dəyişməsə, növbəti devalvasiya qaçılmazdır.**

**İqtisadçı ekspert Qadir İbrahimli** açıqlamasında devalvasiyanın gözlənilən olduğunu bildirib: "Dünya bazarında neftin qiyməti 2015-ci ilin dövlət büdcəsində nəzərdə tutulan 90 dollardan xeyli aşağıdır. O cümlədən Azərbaycan iqtisadiyyatında dollarlaşma tendensiyasının güclənməsi, dollara tələbatın artması belə qənaətə gəlməyə imkan verir ki, Mərkəzi Bank növbəti devalvasiyaya gedəcək. Son tendensiya bundan xəbər verir".

Ekspertin sözlərinə görə, növbəti devalvasiya və dolların bahalaşması iqtisadiyyatda dollarlaşmanın səviyyəsini artıracaq, əhalinin gəlirlərini azaldacaq, Azərbaycan iqtisadiyyatının rəqabətə davamlılığını azaldacaq, ölkəni idxal məhsullarından asılı vəziyyətə salacaq: "Mərkəzi Bankın sədri Elman Rüstəmov 21 fevral devalvasiyasında bildirmişdi ki, manatın devalvasiyası ixracı artıracaq, ancaq son 4 ayın nəticələri göstərir ki, idxal artıb, ixrac azalıb. Təəssüf ki, bu tendensiya var və növbəti devalvasiya olarsa, daha da güclənəcək. Yaxın bir-iki ay ərzində növbəti devalvasiya ola bilər. Bu daxili və xarici faktorlardan asılıdır. Hazırda dünya bazarında neftin qiymətini iqtisadi deyil, siyasi faktorlar müəyyənləşdirir. Bu baxımdan neftin qiymətinin gələcəkdə necə dəyişəcəyini proqnozlaşdırmaq çətindir".

**İqtisadçı ekspert Vüqar Bayramov isə bu iddiaları əsassız adlandıraraq ilin sonuna qədər Mərkəzi Bankın devalvasiyaya getməyəcəyini bildirdi:** "Dolların məzənnəsinin manata nisbətən aşağı düşməsi, o cümlədən valyuta bazarında dolların bahalaşması təkcə daxili faktorlarla deyil, eyni zamanda müxtəlif səbəblərlə bağlıdır. Nəzərə alsaq ki, manatın məzənnəsi eyni zamanda ölkəyə daxil olan valyutaların həcmindən asılıdır. Azərbaycan ixracatının təxminən 95 faizini neft məhsulları təşkil etdiyindən neftin dünya bazarındakı qiymətindən birbaşa asılıdır. Çünki ölkəyə daxil olan valyutaların məbləğini praktik olaraq müəyyənləşdirir, ölkəyə nə qədər çox valyuta daxil olursa, bu, Mərkəzi Banka imkan verir ki, manatın məzənnəsini bir o qədər sabit saxlasın. Mərkəzi Bank artıq 2015-ci ildən ikivalyutalı səbətə keçib. İkivalyutalı səbətdə artıq avronun çəkisinin artması müşahidə olunur. Bu isə o deməkdir ki, manatın məzənnəsi eyni zamanda avronun dollara nisbətən məzənnəsindən də asılıdır. Əgər avronun dollara nisbətən məzənnəsində möhkəmlənmə müşahidə olunsa, bu, eyni zamanda özünü manatın kursunda da göstərəcək. Əksinə, avronun dollara nisbətən məzənnəsi yumşalırsa manat da dollar qarşısında dəyər itirir. Yaxın vaxtlarda dolların dəyərdən düşməsi və ya manatın bahalaşması gözlənilmir. Bununla belə, Mərkəzi Bank çalışacaq ki, kəskin devalvasiyaya getməsin".




**İqtisadçı ekspert onu da bildirdi ki, yay aylarında idxaldan asılılığın azalması da dollara tələbatın azalmasına səbəb olur və bu, manatın ucuzlaşmasının qarşısını alır:** "Yay aylarında mövsümi olaraq istehlak bazarında satılan məhsulların böyük bir qismi yerli məhsullardır. Bu, idxalın azalmasına və ölkədən çıxan valyutanın həcminin məhdudlaşmasına səbəb olur. Bu da manatın məzənnəsinin saxlanılması baxımından arzuolunandır. Əksinə, yay aylarında neftə tələbat artır. Bu baxımdan Mərkəzi Bank çalışacaq ki, yaxın müddətdə kəskin devalvasiyaya getməsin. 2015-ci ilin növbəti aylarında Mərkəzi Bank intervensiya xərcləri hesabına olsa belə devalvasiyaya getməməyə çalışacaq. Azərbaycanda manatın məzənnəsinin sərbəst olmaması və Mərkəzi Bank tərəfindən müəyyənləşdirilməsi proqnoz verməyə çətinlik yaradır. Amma mövcud tendensiyaları nəzərə alaraq demək mümkündür ki, Mərkəzi Bank mövcud məzənnəni qoruyub saxlayacaq. Yaydan sonrakı mövsümdə manatın məzənnəsi dolların dünya bazarındakı rolundan, neftin dünya bazarındakı qiymətindən və Mərkəzi Bankın valyuta ehtiyatlarının həcmindən asılı olacaq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015



# Ədaləti dəfn edənlər

Azər RƏŞİDOĞLU

**Azərbaycanda insanların önəmli hissəsi heç kəsə inanmır. Bunun səbəbi də sadədir. İnsanlarda ədalətə inam sarsılıb. Toplumun ədalətin təntənəsi istiqamətindəki gözləntiləri ilə dövlət qurumlarının bu problemə funksional baxışının üst-üstə düşməməsi cəmiyyətin ümumi əhvalını alt-üst edir. Artıq problem o qədər dərinləşib ki, nələrisə dəyişməyin vacibliyini iqtidar özü də anlayır.**

Bugünlərdə dövlət başçısı da çıxışında vurğuladı ki, cəmiyyətdə ədalətin təntənəsinə nail olmaq lazımdır. İlk növbədə məhkəmələrə inamın bərpa edilməsi ən vacib məsələ kimi qəbul edilir. Məhkəmələrin ədalətsiz olması ilə bağlı ölkədə hamı danışır. Belə bəyanatlar toplumun gözləntilərinə cavab verən, amma hüququn aliliyi prinsipinə daban-dabana zidd bir bəyanatdır. Nə qədər əcaib səslənsə də, məhkəmə-hüquq sistemi ədalətin bərpasını özünün ali məqsədi kimi elan edə bilməz. Məhkəmənin əsas vəzifəsi hüququn aliliyini təmin etməkdir. Hüququn aliliyinin təmini isə bəzən ədalətin "təntənəsinə" mane olur. Məsələn, hüququn aliliyi məhkəmə prosesində qeyri-qanuni yollarla əldə olunmuş dəlil və sübutları nəzərə almamağı tələb edir. Bir sıra hallarda qanunun bu tələbinə riayət edilməsi cinayətkarın cəzasız qalmasına gətirib çıxarır, yəni adələtin təntənəsinə mane olur. Özü də bilərəkdən. Formal olaraq tərkib hissəsi olduğumuz "mədəni dünya"da toplum özünün ədalət təpkisini iki yolla ortaya qoyur: əvvəla, məhkəmə-hüquq sistemi ilə. Azərbaycanda bu yolla ədalətin təntənəsinə nail olmağın müşküllüyünə inanmayanların sayı da az deyil.

Bir sözlə, toplumda məhkəmə-hüquq sistemi vasitəsilə ədalətin təntənəsinə nail olunmasının mümkünlüyü ilə bağlı heç bir illüziya yoxdur.

Dünyanın bir çox ölkələrində, o cümlədən qardaş Türkiyədəki vəziyyət Azərbaycandakından fərqlənir. Bu ölkələrdə məhkəmələrə inam az deyil, amma yenə də toplumun böyük hissəsinin məhkəmə sisteminə inamı yoxdur.

Digər tərəfdən, istənilən an qanunlara dəyişiklik edilməsi yolu ilə haqsızları haqlı çıxarmaq olar. Məsələn, indi də Türkiyədə son korrupsiya qalmaqalı ilə bağlı qanunlara dəyişiklik edilməsi nəzərdə tutulur. Axı söhbət nazir övladlarının və hətta prezident oğlunun azadlığına yaranan təhlükədən gedir.

Toplumun "ədalət təpkisi"nin nümayişinin ikinci yolu isə seçkilərdir. Bizdəki seçkilər haqqında danışmağa belə dəyməz. Onların nəticəsi bütün hallarda dəyişməzdir və öncədən məlumdur. Bir sözlə, burada da mövcud leqal institutlar çərçivəsində toplumsal təpki nümayişi üçün heç bir imkan yoxdur.

Türkiyədə situasiya fərqlidir. 2003-cü ildən bu yana seçimlərdə hakim AKP Türkiyədə təkbaşına iqtidara gələrək hökuməti formalaşdırır. Elə Türkiyə ilə Azərbaycanın fərqi də budur. Orada seçkiyə inam var.

Türkiyədə çoxpartiyalı sistem II dünya müharibəsindən sonra formalaşmağa başlayıb. Bu isə o deməkdir ki, son 60 ildə keçirilən seçkilərdə Türkiyədə yeddi dəfə iqtidar dəyişikliyi olub. Yəni gerçək seçkilərin yarısından çoxunda hakimiyyət dəyişikliyi baş verib. Təsadüfi deyil ki, AKP-siz Türkiyənin gələcəyi ilə bağlı ciddi müzakirələr gedir. Çünki qarşıdan gələn parlament seçkilərində də AKP-nin qalib gələcəyi proqnozlaşdırılır. Seçici bütün siyasətçilərin, o cümlədən Ərdoğanın taleyini həll edə bilər. Azərbaycanda isə seçici demək olar ki, heç nəyi həll etmir...

# Ziya Məmmədov oğlu haqda "Yeni Müsavat"a danışdı

## Nəqliyyat naziri Anar Məmmədov barədə yayılan xəbəri təkzib etdi: "Əks təqdirdə, sizi şəxsən özüm məhkəməyə verəcəm"

**Nəqliyyat naziri Ziya Məmmədov "Yeni Müsavat"a təkzib mesajı yollayıb. Onun bu mesajını musavat.com-a Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov çatdırıb.**

Nazir bildirib ki, "Yeni Müsavat"da "Anar Məmmədovun prezidentin rəsmi qəbulunda nə işi varmış?" başlıqlı yazıda yanlışlığa yol verilib: "Yazıda bildirilir ki, guya Anar Məmmədovu o tədbirə mən aparmışam. Bu iddia doğru deyil. Oğlumun o tədbirdə iştirakından xəbərim belə yoxdu. Anar Məmmədov ictimai fəaliyyətlə məşğuldur. O, Azərbaycan-Amerika Alyansının rəhbəridir, Makedoniyanın Azərbaycanda fəxri konsuludur. 28 May Respublika Günü ilə bağlı keçirilən rəsmi qəbula dəvətnamə ilə çağırılıb, lazım gəlsə həmin dəvətnaməni mətbuata təqdim edə bilərik. Bunları ona görə deyirəm ki, məsələ yazıda təqdim olunduğu kimi deyil, mən oğlumun əlindən tutub o tədbirə aparmamışam". Nazir bildirib ki, bu haqda təkzib verilməsə, şəxsən özü "Yeni Müsavat"ı məhkəməyə verəcək.



Ziya Məmmədov



Anar Məmmədov

Xatırladaq ki, qəzetimizin 30-31 may, 2015-ci il tarixli sayında nəqliyyat nazirinin oğlu, "Garant Holdinq"in təsisçisi Anar Məmmədovun mayın 27-də "Buta" sarayında Respublika Günü ilə bağlı keçirilən rəsmi qəbulda iştirakı haqda xəbər dərc edilib. Xəbərdə bildirilir ki, nazir oğlunun ali dövlət tədbirinə qatılması diqqətdən yayınmayıb. A.Məmmədovun bu cür törəndə hansı statusla iştirakı tədbirdə olanlar arasında sual yaradıb. Yazıda iddia olunur ki, onun həmin tədbirdə iştirakını atası Ziya Məmmədov təşkil edib. Nazirin öz oğlunu deputat etmək istədiyi üçün onu indi də bu cür tədbirlərə apardığı da xəbərdə öz əksini tapıb.

# Yeni dəyişikliklər xaricdə təhsilə necə təsir edəcək?

## Zahid Oruc: "Əsas şərt az qala pirat qaydada diplom istehsal edən müxtəlif əcnəbi təhsil qurumlarının adlarının birdəfəlik vətəndaşlarımızın seçimindən kənarda qalmasıdır"

**Milli Məclisin spikeri Oqtay Əsədovun ötən həftə parlamentin iclasında təhsillə bağlı səsləndirdiyi fikirlər cəmiyyətdə birmənalı qarşılanmayıb. Spikerin mövqeyini tənqid edənlərlə yanaşı, yeni düzəlişlərin xaricdə təhsillə bağlı yeni məhdudiyyətlər gətirəcəyi haqda fikirlər meydana çıxıb.**



Zahid Oruc

**Deputat Zahid Oruc** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Milli Məclisdə təhsil müzakirələri və xaricdə təhsillə bağlı səsləndirilən fikirlər əhalidə çaşqınlıq yaradıb. Bir çoxları yeni düzəlişlərin xaricdə təhsilin yolunu bağlayacağını düşünür. Bu mövzuda seçicilərdən və əhalidən çoxlu sayda iradların olduğunu deyən deputat qeyd olunan məsələ ilə bağlı düzgün izahat işinin aparılmadığını deyir: "Xaricdə təhsilin qadağan olunmasından, ötən dövr ərzində minlərlə gəncin təhsilinə "saxta diplom" yarlığı ilə yanaşılmasından və ordunun komplektləşdirilməsi üçün çağırışçı problemlərinə görə möhlət hüquqlarının ləğvindən qətiyyən söhbət getmir. Əksinə, dövlət qəbul olunmuş proqrama görə qarşıdakı illərdə daha çox gəncin təhsil ödənişlərini üzərinə götürmək niyyətindədir. Üstəlik, Azərbaycan analarının müqəddəs missiyalarını uğur, dəyanət və mərdliklə yerinə yetirməsi hesabına xalqımızın, o cümlədən, hərbi mükəlləfiyyətli oğlanların sayı artmaqda davam edir. Birinci sinfə daxil olanların sayına baxmaq kifayətdir ki, 11 il sonra silahlı qüvvələrimizdə şərəfli borcunu yerinə yetirəcək gənclərin sayını müəyyənləşdirmək mümkün olsun".

**Deputat deyir ki, yeni düzəliş müvafiq icra hakimiyyəti orqanının xaricdə təhsil hüququ tanınacaq ali məktəblərin siyahısını tərtib etməsini nəzərdə tutur:** "Yəni indiyədək 18 yaşına çatmış gənclərimiz onlara bakalavr pilləsində verilmiş möhlətdən yararlanaraq, məsələn, hətta Rusiyanın özündə tanınmayan hər hansı özəl təhsil müəssisinə daxil olur, 4 il hərbi çağırışdan kənarda qalır, sonra isə müvafiq diplomun tanınması yolunda böyük məhrumiyyətlərlə üz-üzə qalır. İndi isə istənilən Azərbaycan vətəndaşı şəxsi və ya dövlət hesabına əcnəbi ölkələrdə oxumağa gedərkən seçəcəyi universitetin onun dövləti tərəfindən tanınıb-tanınmamasını dəqiq biləcəkdir və bunu nəzərə alacaqdır. Deməli, dünənki dəyişiklik Təhsil Nazirliyinin üzərinə belə bir vəzifə qoyur-təkcə dövlət yardımı hesabına deyil, eləcə də başqa yollarla xaricə üz tutan insanlarla gələcək münasibətlərini bəri başdan hüquqi müstəviyə daşısın".

**Deputat deyir ki, hökumət hazırda müsabiqə yolu ilə 33 ölkənin 419 universitetindən birinə qəbul olan şəxslərin təhsil haqqını ödəyir. Z.Orucun fikrincə, yeni siyahıda universitet sayı daha da artacaq:** "Yeni siyahıda indikindən qat-qat çox təhsil müəssisənin adı olacaq. Lakin bir şərtlə - bu diplomları tanınacaq universitetlərin ünvanıdır. Yəni yeni siyahının hazırki "xaricdə təhsil proqramı" ilə heç bir bağlılığı yoxdur".

**Təhsil Nazirliyinin universitetləri hansı kriteriyalar əsasında seçəcəyinə gəlincə, Z.Oruc deyir ki, burda əsas meyar universitetlərin reytinqi deyil, istənilən xarici ölkədə dövlət tərəfindən tanınan və statusu beynəlxalq elmi təşkilatlarda qəbul olunan ali məktəblər olacaq:** "Yəni əsas şərt az qala pirat qaydada diplom istehsal edən müxtəlif əcnəbi təhsil qurumlarının adlarını birdəfəlik vətəndaşlarımızın seçimindən kənarda qalmasıdır".

**Bundan başqa, deputat qanuna yeni əlavələrin məhz bundan sonra xaricə təhsil almaq üçün gedənlər barədə hüquqi qüvvə daşımalı olduğunu, hazırda təhsilini davam edənlərə qarşı tətbiq olunmamalı olduğunu deyir:** "Azərbaycanda seçim qarşısında olan on minlərlə insanın dövlətin qərarlarından xəyal qırıqlığına uğramasına heç bir ehtiyac yoxdur. Ölkəmizdə təhsil sferasında mövcud olan uğurları və problemləri aydın nəzərlərlə görərək etiraf etməliyik ki, dünyada mövcud olan təhsil piratlığından və saxta ali məktəb turizmindən yaxa qurtarmağın başqa yolu yoxdur.

Hər cür müqayisə qüsurludur, deyirlər. Bu doğrudur. Lakin daha yaxşı təsəvvür etmək üçün bir misal çəkək. Onlarla ölkə hər hansı nəqliyyat vasitəsinin və onun işlətdiyi yanacağın tərkibinə dair sərt beynəlxalq standartlar tətbiq etdiyi halda, nədən təhsildə vahid kriteriyalar mövcud olmasın?! Yararsız texnika bir və bir neçə insanın həyatını məhv edə bilərsə, saxta diplom minlərlə cəmiyyət üzvünün gələcəyini təhdid edir! Ona görə də təhsil hər bir millətin yeganə xilas və inkişaf yoludur".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015

## YAP seçki taktikasını da, siyahısını da dəyişir

# Nazir övladları parlamentə gəlir... - şok gəlişmə

### Hakim partiya deputat olmaq istəyənlərin bəzilərini seçkiyədək pressinq altında saxlama niyyəti güdür; Siyavuş Novruzov “Yeni Müsavat”ın aylar öncə yazdıqlarını təsdiq etdi; yeni siyahıda oliqarxlara yer olmayacaq...

**2015-ci ilin əsas siyasi hadisəsi - parlament seçkilərinə altı ay qaldı. Parlament ötən həftə yaz sessiyasını da başa vurdu və payız sessiyasının 3-4 iclası ilə Milli Məclis 5 illik səlahiyyətlərini başa vuracaq.**



Avropa Oyunları parlament seçkilərini ikinci plana keçirsə də, hakimiyyət kuluarlarında bu prosesə hazırlıq davam edir və məlumatlara görə, həm də ciddi narazılıqlara müşayiət olunur. Belə ki, siyahının hazırlanmasına avqust ayında başlanılacağı bildirilsə də, artıq bəzi dairələrdə kimlərin namizəd olmayacağı yəqinləşib. YAP-ın bir neçə məşhur adla vidalaşmaq istədiyini hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzov da təsdiqləyib. Mətbuata iki gün əvvəl verdiyi müsahibədə S.Novruzov deyib ki, avqustun 1-nə qədər texniki məsələləri həll edib artıq hansı dairədən kimlərin namizədliyi irəli sürülməli olması məsələsinə baxılacaq. **S.Novruzov maraqlı bir məlumat açıqlayıb:** “Burda bir məsələ də var. YAP ilə digər partiyalar namizədlər irəli sürürlər. Biz indi onları da təqib etməliyik ki, ola bilsin ki, operativ dəyişikliklər edək, o dairələrdə onlardan irəli sürüləcək namizədlərə alternativ kimləri irəli sürəcəyimizi bilək. Yəni ola bilsin ki həmən dairələrdə son anda bəzi yerdəyişmələr olsun” deyə, o bildirib. Məlumdur ki, YAP parlament seçkiləri təcrübəsində heç vaxt “güclü rəqibə qarşı güclü namizəd” taktikasından istifadə etməyib. Müxalifətə gəlincə, real müxalifət hələ ki bu prosesə qoşulmaqda maraqlı görünmür, boykot qərarı da mümkündür. Xəbərlərə görə, YAP uzun illərdir müəyyən dairələrdə “propiska” olunan deputatlara deyib ki, “heç kim özünü arxayın hiss etməsin”. Ehtimal etmək olar ki, YAP bu taktika ilə deputat olmaq istəyənlərin bəzilərini seçkiyədək pressinq altında saxlama niyyəti güdür. Hər halda, bu da YAP-ın builki seçkilərdə yeniliyi hesab oluna bilər.

**“YAP-ın namizədlər siyahısında hazırkı deputat siyahısından fərqli şəxslərin olması gözlənilirmi” sualına da S.Novruzov cavab verib:** “Bizim son parlament seçkilərində namizədlərimizdən 71 nəfər seçilmişdi. Onlardan bir neçəsi dövlət vəzifəsinə təyinat aldığı üçün mandatını təhvil verdi, biri dünyasını dəyişdi, digəri isə mandatdan məhrum edildi. İndi biz də bunu nəzərə alaraq, ümumiyyətlə, növbəti parlament seçkiləri ilə əlaqədar partiyada araşdırmalara başlamışıq. Araşdırmaları apardıqca orada bir neçə istiqamətdə bəzi məsələləri həll edirik. Bunlar partiyanın yerli təşkilatlarının bizi parlamentdə təmsil edən şəxs barədə rəyi, ona seçicilərin münasibəti, xarici beynəlxalq təşkilatlarda təmsilçiliyi, ictimaiyyət tərəfindən qəbul olunması, partiya fəallığı, dövlətçiliyə sədaqət məsələsi kimi bütün məqamlardır. Bunlar tərəfimizdən araşdırılır və tam araşdırma başa çatdıqdan sonra YAP-ın rəhbər orqanında müzakirə olunub qərar veriləcək”.

“Yeni Müsavat” hələ ötən aylarda bu mövzuda yazarkən YAP-ın bu yarıməxfi araşdırmasına da toxunmuşdu. Məlumatda bildirilirdi ki, deputat mandatını təhvil vermək istəməyənlərin narazılıqlarını önləmək üçün hakim partiya xüsusi araşdırmaya başlayıb. Bu barədə “Yeni Müsavat”a məlumat verən mənbənin sözlərinə görə, araşdırma bəzi biabırçı nəticələr üzə çıxarıb. Məlum olub ki, Bakı və Bakıətrafı rayonların bəzilərində seçicilər öz deputatlarının hətta adını belə bilmirlər. Üstəlik, bəzi dairələrdə deputatlar onlarla seçicilərin görüşü üçün ayrılmış qəbul yerlərində olmayıblar.

**YAP icra katibinin müavini Siyavuş Novruzov indi belə bir araşdırma aparıldığını və arzuedilməz nəticələr üzə çıxdığını təsdiqləyib:** “Apardığımız araşdırmanın artıq bəlli olan müəyyən nəticələri var və aşkar olunub ki, həmən şəxsin növbəti dəfə namizəd olmasını seçicilər də istəmir. Belə şəxslər var və bunlar çox deyil, konkret müəyyən fərdlərdir. Hələ ki adlarını açıqlamasam da, bu məsələ sonda dediyim kimi, partiya rəhbərliyi tərəfindən müzakirə olunacaq. Hətta elə insanlar da var ki, bu müddət ərzində deputat kimi beynəlxalq təmsilçilikləri yaxşı olub, amma yerlərdə müəyyən dərəcədə problemləri var. Biz bunları da nəzərə alacağıq ki, beynəlxalq aləmdə Azərbaycanın təmsilçiliyi vacib şərtlərdən biridir”, deyən YAP funksioneri deputat siyahısında ciddi dəyişiklik olacağını təsdiqləyib. Hakimiyyətə yaxın mənbələrdən aldığımız xəbərə görə, payızadək regionda ciddi dəyişikliklər olmasa, iqtidar bu seçkini də əvvəlki üsulla keçirmək niyyətindədir. Ehtimallar var ki, yalnız siyasi proseslərə təsiri olmayan iki-üç müxalifət siması mandat ala bilər. Amma bu da çox zəif ehtimaldır. Çünki bu parlament 2018-ci il prezident seçkilərində də fəaliyyətdə olacaq və belə həssas dönəmlərə hazır olmaq da lazım gəlir. Artıq o da dəqiqləşib ki, yola salınanların yerinə bəzi tanınmış nazir övladları oturacaqlar. S.Novruzov da müsahibədə “savadlı və intellektual gənclərin namizədliyi ilə bağlı düşünürük” deyib.

Məlumatlara görə, nazirlər bu yolla övladlarının həm gələcəyini qarantiyaya almaq, həm də onları mətbuatın “caynağından” sığortalamaq istəyirlər. Mandat daşıyan, eyni zamanda ayrı-ayrı dövlət qurumlarına, ali məktəblərə rəhbərlik edənlər də ciddi seçim etməli olacaqlar. Bildirildiyinə görə, ölkə rəhbərliyi rəhbər vəzifə tutanların mandat daşımayacağı barədə prinsipial qərarını açıqlayıb.

Ancaq bəzi istisnaların ola biləcəyi də ehtimal edilir. Parlamentin tərkibində üstün yerlərdən birini tutan iş adamı və biznesmenin deputatların da yeni tərkibə düşməsi çətin olacaq. Bu, son “oliqarxqeyt qalmaqalından” sonra daha inandırıcı görünür. Beləliklə, gələn xəbərlərin təhlili göstərir ki, YAP siyahısını dəyişir, amma parlamentin fəaliyyətində nəsə dəyişəcəkmi?

❑ Xəbər xidməti

# “Parlamentin sifəti xeyli dəyişəcək”

### Natiq Miri: “3-4 dönəm deputat mandatı daşıyan şəxslərin 80 faizindən çoxu böyük ehtimalla bu dəfə Milli Məclisdə yer ala bilməyəcəklər”

**Parlament seçkilərinə 5 ay qaldı. Avropa Oyunları ölkə gündəminin bir nömrəli mövzusu olduğundan seçkilər məsələsi kölgədə qalıb. Nə hakimiyyət düşərgəsinin, nə də müxalifətin hansısa aktiv seçki hazırlıqları apardığını göstərəcək nəsə tapmaq mümkün deyil. Cəmiyyətdə də seçkilərə biganəlik hökm sürür. Ekspertlər belə bir vəziyyətin əslində iqtidara sərf etdiyi, müxalifətin isə zərərinə işlədiyini düşünürlər.**



Natiq Miri

“Müxalifət düşərgəsini və ümumən ölkəni bu gedişlə seçkilərdə nə gözləyir” sualı ilə müraciət etdiyimiz **politoloq Natiq Miri** öncə bildirdi ki, seçkilərə hazırlıq seçki bitdikdən sonra seçki gününə qədərki 5 ili əhatə etməlidir. 5 ilə yaxın müddəti seçki hazırlıqları aparmayıb seçkiyə bir neçə ay qalanda başlanan hazırlıq ciddi nəticə, effekt vermir. Siyasi partiyalar təəssüf ki, bunu nəzərə almırlar: “Azərbaycanda siyasi partiyalar, yalnız seçki ərəfəsində müəyyən hərəkətlənməyə başlayırlar. Nəticənin necə olduğu isə göz önündədir. Təəssüf ki, eyni tendensiya, eyni yanaşma bu il də müşahidə edilir. Ən azından müxalifət partiyaları rayon təşkilatları vasitəsilə çox ciddi bir proses başlatmalıydı. Xüsusilə ictimai görüşlər təşkil edilməli, yerlərdə insanlar payızda keçiriləcək seçkilərə hazırlanmalıydılar. Ancaq hələ bu da görünmür. Çox qapalı şəraitdə müəyyən müxalif partiya liderləri rayonlara gedib öz rayon təşkilatlarının məhdud sayda üzvləri ilə görüşüb yenidən mərkəzə qayıtmaqla öz işlərini bitmiş hesab edirlər. Belə siyasətlə seçkidə qələbə qazanmaq olmaz. Nəzərə almaq lazımdır ki, seçkilərdə alternativ tərəf çox böyük resurslara malik iqtidardır. Hakimiyyətin maliyyə, inzibati resursları çox böyükdür. Onu da nəzərə almaq lazımdır hakimiyyətin elə namizədləri də var ki, onların konkret dairələrdə nüfuzu var və seçki saxtakarlığı olmadan da həmin dairələrdə istənilən müxalifət namizədinə qalib gəlmək şansları var. Bunlar reallıqdır, realllığı qəbul etmək və buna adekvat olaraq çox ciddi siyasi fəaliyyət ortaya qoyulmalıdır. Biz bunu görmürük. Üstəlik, bu gün cəmiyyətdə də seçki ab-havası yoxdur. Bu vəziyyət də müxalifətin zərərinədir və müxalifət cəmiyyətdə seçki ab-havasının yaranmasına çalışmalıdır”.

**Ekspert hakimiyyətin də parlament seçkilərinə hazırlıqlara hələ ciddi önəm vermədiyini, hazırlıq işlərinə Avropa Oyunlarından sonra start veriləcəyini, bütün proseslərin Avropa Oyunlarından sonraya saxlandığını söylədi:** “Hətta hakimiyyət bu seçki ilə bağlı konkret olaraq siyasi qərar verməyib. Bu seçkini koordinasiya edəcək siyasi fiqur hələ müəyyənləşməyib.



Əvvəlki seçki illərində rast gəlinməyən bir çox faktorlar var ki, hakimiyyətin siyasətinə ciddi təsir edəcək. Ola bilsin ki, bəzi siyasi islahatlara da start verilsin. Ciddi kadr dəyişiklikləri də Avropa Oyunlarından sonra müşahidə edə bilərik. İstisna deyil ki, növbəti parlament seçkiləri əvvəlkilərə nisbətdə müəyyən dərəcədə demokratik olsun və yeni parlament daha fərqli, daha rəngarəng olsun. Hakimiyyət güman ki, cəmiyyətin bütün spektrinin parlamentdə təmsil olunmasına yaşıl işıq yandıracaq. 3-4 dönəm deputat mandatı daşıyan şəxslərin 80 faizindən çoxu böyük ehtimalla yeni parlamentdə yer ala bilməyəcəklər. Çünki artıq cəmiyyət yorulduğu kimi hakimiyyət də onların əksəriyyətindən yorulub. Bu və digər səbəblər var ki, parlamentin tərkibinin xeyli dərəcədə yenilənəcəyini diktə edir. Bu baş verəcək və parlamentin sifəti xeyli dəyişəcək. Bu amil qarşıdakı çətin dönəmdə Azərbaycan dövlətinin möhkəmlənməsi üçün açar rolunu oynayacaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015


Allahşükür Paşazadə

# Putinin verdiyi mükafat Şeyxi qoruya biləcəkmi?

## Azərbaycan hakimiyyəti daxilində Allahşükür Paşazadəyə qarşı hücumların artdığı bir vaxtda Moskvadan dəstək mahiyyətli mükafatlar gəlir, Rusiya ənənəvi ruhaniliyin son qalalarından birini qoruma altına alır

**Xəbər verdiyimiz kimi, ötən həftə Rusiya prezidenti Vladimir Putin QMİ sədri Şeyxülislam Allahşükür Paşazadəni növbəti dəfə təltif edib. Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin Şeyxülislama konfessiyalar və xalqlar arasında sosial-mədəni əlaqələrin qurulmasında xidmətlərinə görə Rusiya prezidentinin təşəkkürnaməsini təqdim edib.**

Şeyxülislam təqdimetmə mərasimində bildirib ki, Vladimir Putin ona yüksək etimad göstərir: "O, görüşlərimiz zamanı bunu dəfələrlə söyləyib. Mən isə həmişə bu etimadı doğrultmağa çalışmışam".

Qeyd edək ki, buna qədər Şeyx Rusiyanın "Dostluq" və "Şöhrət" ordenlərinə, habelə I dərəcəli "Müqəddəs Apostola bərabər knyaz Böyük Vladimir", I dərəcəli "Müqəddəs Sergey Radonejski", Rus Pravoslav Kilsəsinin "Şöhrət və şərəf" ordenlərinə layiq görülüb.

Yeri gəlmişkən, aprelin 25-də Yekaterinburq və Verxoturye mitropoliti Kirill Şeyxülislam Hacı Allahşükür Paşazadəyə Rus Pravoslav Kilsəsinin Yekaterinburq Yeparxiyasının "Yekaterinburq Yeparxiyasının 130 ili" medalını, habelə xatirə hədiyyələri təqdim edib.

Şeyxülislamın Rusiya ilə yaxın əlaqələrinin olması heç kimə sirr deyil. SSRİ vaxtından Zaqafqaziya regionunun dini lideri titulunu daşıyan Allahşükür Paşazadənin Moskva ilə əlaqələri yaxşı olub. Ancaq məlum olduğu kimi hazırda Şeyxin Azərbaycan hakimiyyəti daxilində ciddi rəqibləri formalaşıb və hər addımda QMİ sədrinin mövqelərini laxlatmağa çalışırlar. Belə bir vaxtda Rusiyadan ardıcıl olaraq Şeyxə təltiflərin "yağması" QMİ sədri üçün dəstək mahiyyəti daşıyır. Məlum olduğu kimi, son illərdə Rusiya hakimiyyəti ölkə daxilində ənənəvi İslam ruhaniliyini ciddi şəkildə dəstəkləyir. Yeltsin dönəmində yaranmış vəziyyətdə Rusiya ərazisində, xüsusən də müsəlmanların kompakt yaşadığı Şimali Qafqaz regionunda xaricdən dəstəklənən radikal islam cərəyanlarının yayılması və bunun fonunda ənənəvi ruhaniliyin sıxışdırılması müşahidə olunsa da, Putin dönəmində mərkəzi hakimiyyət ənənəvi ruhani cərəyanları, din xadimlərini dəstəkləmək xətti tutdu.

Təbii ki, ənənəvi ruhaniliyin əsas mərkəzlərindən biri də QMİ-dir. Şeyxülislam Azərbaycanda olduğu qədər Şimali Qafqazın ənənəvi ruhani liderləri arasında nüfuza sahibdir. Rusiya isə Çeçenistanın timsalında gəlmə ruhaniliyə qarşı ənənəvi ruhanilikdən istifadə etməklə ciddi uğur qazana bildi. Məhz bu səbəbdən də Rusiya baş müftisi Ravil Qaynutdinlə soyuq münasibətlərinin olmasına baxmayaraq Şeyxin Şimali Qafqaz ruhaniliyi üzərində təsiri Moskva tərəfindən dəstəklənib.

Bu xətt, göründüyü kimi, Şeyxin özünü də məmnun edir. Bu səbəbdən də QMİ sədri Rusiya ilə əlaqələrinə böyük önəm verir. Aydın məsələdir ki, Bakıda Şeyxə qarşı münasibətin dəyişməsini Moskvada da müşahidə edirlər. Belə bir vəziyyətdə Moskvadan QMİ-yə ziyarətlərin artması, mükafatlandırmalar Şeyxə qarşı Bakıdakı müxaliflərinin əməllərinə cavab xarakteri daşıyır. Yeri gəlmişkən, diqqətli oxucular xatırlayır ki, 2000-ci illərin əvvəllərində Bakıda Şeyxə qarşı hücumlar artan zaman Şeyxülislam idarəni Tiflisə köçürəcəyi ilə bağlı mesaj vermişdi. Bu mesaj böyük rezonans doğurmuşdu.

Görünür, bu dəfə Şeyxə dəstək Moskvadan gəlib. Doğrudur, hazırda Rusiya ilə Azərbaycan hakimiyyətləri arasında münasibətlər xeyli dərəcədə istidir. Bu mənada indiki vaxtda Rusiya prezidentinin mükafatlandırmaları QMİ sədri üçün vazkeçilməzdir. Ancaq Putinin jestlərinin Şeyxin Bakıdakı rəqiblərini nə qədər sakitləşdirə biləcəyini zaman göstərəcək.

❑ KƏNAN

# XİN və Polad Bülbüloğlu Söyün Sadıqovun ittihamlarına cavab vermək istəmir

## "AzerRos" sədri növbəti dəfə səfir Polad Bülbüloğlunu ittiham edərək onu Abbas Abbasovla əməkdaşlıq etməkdə günahlandırıb, qarşı tərəf isə inadla susur

**Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos"un sədri Söyün Sadıqov növbəti dəfə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu ittiham edib. S.Sadıqov deyib ki, Moskvadakı Azərbaycan diasporunun fəallarından biri olan Mirəşrəf Fətiyev ona etiraf edib ki, səfir Polad Bülbüloğlu ona qarşı çıxması üçün təzyiq edib: "Hələ o zaman o, Səftər Əzimovun yanında üzrxahlıqla etiraf eləmişdi ki, Polad Bülbüloğlu onu mənə qarşı çıxmağa məcbur edib, əks təqdirdə, Azərbaycandakı biznesində problem yaranacağı ilə hədələyib.**


Polad Bülbüloğlu


Söyün Sadıqov

Odur ki, fikrimcə, indi heç nə dəyişməyib. Cənab Fətiyev və onun kimilər növbəti dəfə Polad Bülbüloğlunun əlində mənə qarşı alətə çevriliblər".

Eyni zamanda S.Sadıqov iddia edib ki, səfir Polad Bülbüloğlu təşkilat daxilində yaranmış mübahisə zamanı baş nazirin keçmiş müavini, hazırda Rusiyada yaşayan Abbas Abbasovun tərəfini tutub: "Mən Abbas Abbasovun natəmiz fəaliyyəti barədə açıq çıxış etmişəm. Azərbaycanın səfiri isə hesab edir ki, həqiqət Abbasovun tərəfindədir. Bu da söyləməyə əsas verir ki, səfir hələ də köhnə dostunu müdafiə edir və ya ondan qorxur..."

**S.Sadıqov deyib ki, Abbas Abbasovu 2012-ci ilin fevralında P.Bülbüloğlu vasitəsilə tanıyır:** "2012-ci ildə Rusiyadakı prezident seçkiləri ərəfəsində bizi Ümumrusiya Azərbaycanlıları Konqresinin indiki icraçı direktoru İlqar Hacıyev, diasporun müəyyən dairələrində tanınan Natiq Ağamirov və səfir Polad Bülbüloğlu tanış edib. O zaman mən aydın şəkildə gördüm ki, səfirlə Abbas Abbasov arasında necə isti münasibətlər var. Axı Abbasov səfirin yanına yox, Bülbüloğlu daim onun yanına, "Praqa" restoranına gedirdi. Məhz Bülbüloğlu "AzerRos" Ağsaqqallar Şurası sədrliyinə Abbasovun namizədliyini irəli sürmüşdü. Halbuki mən hələ 2013-cü ilin əvvəlində Abbas Abbasova münasibətdə öz narahatlığımı və şübhələrimi ortaya qoymuşdum".

**Söyün Sadıqov bildirib ki, səfirlik normal fəaliyyət göstərib Rusiyada yaşayan azərbaycanlıların problemlərini həll etmək əvəzinə diaspor daxilində siyasi intriqalara qoşulub:** "Mən ondan xahiş edirəm, məni yox, öz həmvətənlərini və azad seçimi dəstəkləsin. Səfirliyin konsul şöbəsində həmvətənlərimizin hansı çətinliklərlə üzləşdiyi heç kimə sirr deyil. Səfir öz xalqı ilə birgə olmalıdır. O, elə bundan ötrü də burada - Rusiyadadır. Abbas Abbasov öz çirkin siyasi oyunları və intriqaları ilə kənarda qalıb, səfir isə mübarizəni mənimlə aparır. Abbasov tərəfindən mənimsənilmiş təşkilatın "legitimliyini" sübut etməyə çalışır. Bilirsiniz, biz böyük həvəslə Azərbaycanda dövlət əleyhinə cinayət törətmiş adamların son həbsi xəbərini izləyirik. Çox ümid edirik ki, növbə Rusiyada yaşayan, vətəndən uzaqda olsa belə, hələ də öz xalqına, dövlətinə xəyanət eləmiş Azərbaycan vətəndaşlarına da çatacaq".

Qeyd edək ki, iki ay əvvəl də Söyün Sadıqov Polad Bülbüloğlunu siyasi intriqa apararaq "AzerRos" daxilində parçalanma yaratmaqda, Abbas Abbasovu müdafiə etməkdə ittiham edib. Görünən odur ki, bu dava hələ də davam edir və səfir diaspor daxilindəki savaşların bir hissəsinə çevrilib.

Ancaq qəribə də olsa, ötən dəfə də, bu dəfə də cəhd etsək də səfir Polad Bülbüloğlundan bu ittihamlara cavab ala bilmədik. Səfir özü "Yeni Müsavat"ın telefonlarını qaldırmadı. Azərbaycanın Moskvadakı səfirliyindən danışdığımız Cavid adlı şəxs *(soyadını söyləməkdən imtina etdi - K.)* bildirdi ki, Polad Bülbüloğlu hazırda Tiflisdə olduğu üçün bizə cavab verə bilməyəcək. Ancaq onu da bildirdilər ki, səfirin reaksiyasını öyrənib bizə deyəcəklər. Azərbaycan XİN-dən isə Söyün Sadıqovun ittihamlarını şərh etmək istəmədilər. XİN mətbuat xidmətindən bildirdilər ki, Xarici İşlər Nazirliyi şayiə xarakterli məsələləri şərh etmir.

❑ KƏNAN

# AMİP-də sədrə qarşı narazılıq yaranıb

## Yusif Bağırzadənin "mitinqə yer ayrılmasın" çağırışı daxildə etirazlara səbəb olub


Yusif Bağırzadə

**AMİP sədri Yusif Bağırzadənin Milli Şuranın mitinqlərinə yer ayrılmasının doğru olmadığı və Bakı Şəhər İcra Hakimiyyətinin bundan sonra sözügedən quruma mitinq üçün yer ayırmaması ilə bağlı verdiyi açıqlama partiyasının daxilində narazılıqla qarşılanıb. Milli Şuranın 30 may mitinqinə bir gün qalmış Yusif Bağırzadə APA-ya açıqlamasında bildirmişdi ki, Milli Şura yaranan gündən xarici qüvvələrin təsiri altındadır və onlar tərəfindən idarə olunur.**

Ona görə də AMİP bu mitinqdə iştirak etməyəcək. Eyni zamanda Y. Bağırzadə Milli Şuranın rəsmi qeydiyyatdan keçmədiyini xatırladıb və rəsmi qeydiyyatdan keçməyən quruma Bakı Şəhər İcra Hakimiyyətinin mitinq üçün şərait yaratmasına qarşı çıxmışdı: "Mən bir məsələni anlaya bilmirəm, Bakı Şəhər İcra Hakimiyyəti rəsmi qeydiyyatda keçməyən bir təşkilatın mitinqlə bağlı müraciətinə niyə cavab verir? Mən hesab edirəm ki, qeydiyyatdan keçməyən təşkilata Bakı Şəhər İcra Hakimiyyəti mitinq üçün yer ayırmamalıdır".

**Bu çağırış xarakterli bəyanat AMİP üzvlərini, partiyanın rəhbərliyinə daxil olan klassik milli istiqlalçıları qəzəbləndirib. Bu narazılığın ilk işartısı kimi AMİP mətbuat və informasiya xidməti elə həmin gün rəsmi bəyanat yayıb ki, Yusif Bağırzadənin mövqeyi AMİP-in mövqeyi deyil:** "Bir sıra informasiya agentliklərində Milli Şuranın 30 may tarixli mitinqi ilə əlaqədar AMİP sədri Yusif Bağırzadənin adından yayılan açıqlamaya münasibət bildirərək bəyan edirik ki, fikirlər AMİP-in mövqeyini əks etdirmir. AMİP sərbəst toplaşmaq azadlığını fundamental insan hüquqlarının tərkib hissəsi kimi görür, hər bir fərdin və təşkilatın sərbəst toplaşmaq hüququnun Konstitusiya ilə təsbit olunmuş müddəa olduğunu bəyan edir. Bu kontekstdə Milli Şuranın mitinqinə yer ayrılması barədə qərar BŞİH-in müstəsna hüququdur və müzakirə mövzusu hesab olunmur".

Qeyd edək ki, bir partiyanın sədrinin verdiyi açıqlamanın məhz həmin partiyanın mövqeyi olmadığı barədə partiyanın rəsmi orqanının bəyanat yayması kimi hal nadir rast gəlinəndir.

"Yeni Müsavat"a daxil olan xəbərə görə, AMİP rəhbərliyinə daxil olan şəxslər Yusif Bağırzadənin ortaya qoyduğu mövqenin partiyanı belə bir arzuolunmaz vəziyyətlə üz-üzə qoyduğunu açıq şəkildə onun özünə bildiriblər. Partiyanın rəhbər orqanlarının ümumi mövqeyini öyrənmədən bir daha belə açıqlamalar verməməyi tələb ediblər. Növbəti qurultayda AMİP sədri postuna real şansı olan şəxslərdən sayılan baş katib Arzuxan Əlizadənin partiyanı cəmiyyətin gözündən salacaq açıqlamalar verilməsinə daha sərt münasibət sərgilədiyi deyilir.

❑ E.SEYİDAĞA

**Seçkilər müasir demokratik cəmiyyətin əsas göstəricisidir. Demokratiyanın bərqərar olmasının mühüm formasıdır. Xalq hakimiyyətinin təmin edilməsi seçkilər nəticəsində ortaya çıxır. Seçkilər hakimiyyətin xalqa etimadını və müdafiəsini əldə etməsinin ən təsirli və sınanmış vasitəsidir. Bu mühüm vasitə cəmiyyəti ədalətsizlikdən və diktatura təhlükəsindən qoruyur. Azərbaycan Respublikası vətəndaşları da seçmək və seçilmək, referendumda iştirak etmək hüququna malikdir.**

**Həcər ABBASLI**
**Ümid Partiyası Gender Bərabərliyi şöbəsinin müdiri**



# Azərbaycan seçicisi yetərincə bilir, qiymətləndirir, sadəcə...

## Avropa Oyunları bizim indiyə qədər keçirilən seçkilərdən daha peşəkar şəkildə təbliğ edilir, minlərlə gənc və könüllü bu prosesə cəlb olunur; seçkidə isə heç kim könüllü olmaq istəmir...

Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçkilərdə və ümumxalq səsverməsində -referendumda öz əksini tapır. Konstitusiyanın 56-cı maddəsinə əsasən vətəndaşlarımızın dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Təəssüf ki, bu gün ölkə vətəndaşları onlara verilmiş bu hüquqlardan istifadə etməkdə maraqlı görünmürlər. Bəs görəsən buna səbəb nədir? Təbii ki, hakimiyyətin uzun illər apardığı seçki siyasəti.

Hakimiyyət hər dəfə seçkiləri saxtlaşdırmaqla belə bir fikir formalaşdırmağa çalışır ki, seçki heç nəyi dəyişmir. Bununla da seçici prosesdən kənar qalır, seçki ənənəsi sıradan çıxarılmağa çalışılır. Basqılar nəticəsində vətəndaşların siyasi proseslərdə fəallığı yetərincə aşağı düşüb. Hər sonuncu seçkidə aktivlik demək olar ki, daha da aşağı düşür. 2005-ci ildən sonra isə seçkilərdə aktivlik hiss olunmur. Sadəcə seçki dönəmində hakimiyyətin süni şəkildə yaratdığı aktivlik nəzərə çarpır.

Növbəti seçkilər aylar qalmasına baxmayaraq mənzərə yenə də eynidir. Buna təsir edən bir sıra faktorlar var. İlk növbədə ölkədə bu il QHT sektoruna olan basqılar, həbslər və qanunların sərtləşdirilməsi, eyni zamanda ifadə azadlığı sahəsində olan basqılar, seçkilərlə bağlı ciddi ictimai müzakirələrin təşkil olunmaması, televiziyaların bu sahələrə diqqətinin olmaması vətəndaşların seçki prosesi ilə bağlı məlumatlanmasına maneələr yaradır. Yəni insanlar daha çox televiziyaları izləyir və oradan məlumat əldə edirlər. TV-lərdə isə uzun illərdir ki, ciddi siyasi debatlar, siyasi müzakirələrin qaldırılması kimi məsələlər gündəmə gətirilmir. Müxalif qüvvələr, fərqli düşüncə sahibləri televiziyalara buraxılmır. Seçki ili olmasına baxmayaraq seçki ilə bağlı geniş miqyaslı kampaniyalar aparılmır. Bu il keçirilməsi nəzərdə tutulan Avropa Oyunları bizim indiyə qədər keçirilən seçkilərdən daha peşəkar şəkildə təbliğ edilir, minlərlə gənc və könüllü bu prosesə cəlb olunur. Seçkidə isə heç kim könüllü olmaq istəmir. Çünki onların bu sahədə aktivləşməsi üçün nə MSK, nə də hakimiyyətin digər qurumları maraqlı deyil. Halbuki bu maarifləndirici kampaniya seçki ilində əsas prioritetlərdən olmalıdır.

Seçkilərdə əsa problemlərdən biri Azərbaycan vətəndaşlarının bir çoxunun qeydiyyatda bir ünvanda olsa da, özü müvəqqəti olaraq başqa yerdə yaşamasıdır. Bakıda 1 milyondan artıq seçici var ki, qeydiyyatı Bakıya deyil və bu seçicilər seçkidə iştirak edə bilmirlər. Bu cür problemlərin olmaması, vətəndaşların seçkidə iştirakının təmin olunması üçün ciddi tədbirlər görülməli, vətəndaşın müvəqqəti yaşayış yerində asan səsvermənisini təmin etmək üçün yeni qaydalar tətbiq edilməlidir.

Bundan başqa nəzərə almaq lazımdır ki, seçki texniki proses deyil, seçki yalnız namizədlərin seçkiyə irəli sürülməsi, qatılması, imza toplanması təşkilindən ibarət olan proses deyil. Bu uzunmüddətli bir prosesdir. Bura həm seçkiqabağı ictimai-siyasi durum, həm ifadə, sərbəst toplaşma, birləşmə azadlığının durumu daxildir. İnsan hüquqları ilə bağlı ölkədə normal fəaliyyət imkanı olmadan seçkilərin aktiv şəkildə keçirilməsini güman etmək qeyri-peşəkarlıqdır. Qanunlar seçkilərdə və referendumda iştirakın azad və könüllü olmasını, seçkilərdə (referendumda) iştirak edib-etməməklə bağlı Azərbaycan Respublikası vətəndaşlarına təzyiq göstərilməsinin yolverilməzliyini, heç kəsin vətəndaşın öz iradəsini azad ifadə etməsinə mane olmamasını nəzərdə tutur.

Seçki hüququ seçkilərin keçirilməsi zamanı xalqın hüquq düşüncəsinin genişləndirilməsinə, onun siyasi cəhətdən aktivliyinin artırılmasına, xalqı daha uğurlu idarə edə biləcək, onun daha çox inamını qazanmış qüvvələrin hakimiyyətə gəlməsinə şərait yaratmaqla cəmiyyətin "siyasi barometri" qismində çıxış edir. Dünya dövlətləri sırasında respublika quruluşlu dövlətlərin yaranmasının üstünlüyü nəzərə alınmaqla seçki hüququ gələcəkdə də xalqın seçmək və seçilmək hüququndan istifadə imkanlarını artırır, dövlət hakimiyyətinin ali orqanlarının formalaşdırılmasında ən düzgün variant olaraq istifadə edilməsinə zəmin yaradır.

Seçki hüququnun əhəmiyyəti cəmiyyət üçün çox böyükdür. Burada konkret şəxslərin deyil, bütöv halda cəmiyyətin mənafeyi nəzərdə tutulur, hakimiyyətin formalaşdırılmasının hüquqi əsası olmaqla siyasi qüvvələrin ölkənin inkişafında irəli sürdükləri proqramları və siyasi əhval-ruhiyyəni aşkara çıxarır, xalqa bilavasitə dövlət hakimiyyətinə təsir etmək imkanı yaradı

Müşahidələr onu deməyə əsas verir ki, Azərbaycan seçicisini savadsız, təhsilsiz saymaq olmaz. Azərbaycan seçicisi yetərincə bilir, qiymətləndirir, sadəcə olaraq seçki prosesinə inamı yoxdur və bu inam həmişə azalmağa doğru gedib. Uzun illər ərzində Azərbaycan seçicisi görüb ki, seçkilərdə iştirak etmək ölkədə nəyisə dəyişmir. Seçici bunun fərqindədir, o seçki komissiyalarına inam göstərmir, prosesin özünə etimad etmir. Bu yanaşma əlbəttə, yanlış yanaşmadır, biz Ümid Partiyası olaraq bu yanaşmanı dəyişmək uğrunda fəaliyyət göstəririk və parlament seçkilərinə ciddi və başqalarından fərqli şəkildə hazırlaşırıq. Yuxarıda sadaladıqlarımızı nəzərə alaraq biz bu ilin əvvəlindən seçkilərə hazırlığa başlamışıq. Əsas prinsip isə seçicilərin maksimum seçkidə iştirakını təmin etməkdir. Bunun üçün biz seçicilərlə təmasda olur, söhbətlər aparır, onları seçkiyə inandırmağa çalışırıq. Ümumilikdə, seçki fəallığının artırılmasının ən vacib faktoru ölkədə siyasi canlanmanın yaranmasıdır. Əgər Azərbaycan seçicisini seçki prosesinə cəlb edən kampaniyalar baş verərsə, müxtəlif namizədlər maraqlı, cəlbedici, inandırıcı seçki kampaniyaları ilə insanların ürəyinə yol tapa bilərlərsə, onda insanlarda seçki aktivliyi arta bilər. Vətəndaşların proseslərdə iştirakının kütləviliyi, seçicinin seçkiyə inamının artması ölkədə demokratik dəyişikliyin başlanğıcı ola bilər.

Azərbaycanda seçici fəallığının artırılması maraqlı siyasi, demokratik qüvvələrdən və hakimiyyətin özündən də asılıdır. Əfsuslar olsun ki, seçki prosesi tələm-tələsik, süni rəqabət şəraitində aparılır. Bu isə yanlış yanaşmadır, hakimiyyət öz yanaşmasını dəyişməlidir və insanların seçkidə yüksək şəraitdə iştirakı və bu prosesin həqiqi seçkiyə çevrilməsi üçün siyasi iradə nümayiş etməlidir.



# Şöbə sədrləri seçkilərə hazırlığı müzakirə edib

**Şənbə günü Ümid Partiyasının mərkəzi qərargahında partiyanın Bakı şəhər şöbə sədrlərinin iştirakı ilə növbəti toplantı keçirilib. Sədr müavinlərinin iştirakı ilə keçirilən toplantıda seçkilərlə bağlı görülən işlərin icrası müzakirə olunub.**



# Ümid funksioneri vəfat edib

**Ümid Partiyası Samux rayon şöbəsinin Məclis sədri Məmmədov Zahid Səməd oğlu vəfat edib. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə və partiyanın Rəyasət Heyəti Zahid bəyin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.**

**Allah rəhmət eləsin!**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015



# Ciminin mahnıları

Zamin HACI
zaminhaci@gmail.com

"Burada bir alim var idi, o, rəngli milçəkləri hörümçəklərə yedirib hörümçək torundan parça istehsalı üzərində düşünürdü. Başqa bir alim isə tüksüz qoyun növü üzərində çalışırdı"

**(Conatan Svift, "Qulliverin səyahəti")**

**Deputatxananın xaricdə təhsili az qala ləğv eləmək haqda qərarına dünənki yazımda toxunmuşam, ancaq bir nəfər yadımdan çıxmışdı. Ordakı müzakirələrə deputat Sabir Rüstəmxanlı da münasibət bildirib: "Oqtay müəllim o mənada deyir ki, gənclər xaricdə təhsil adıyla gedib ölkəyə qayıtmırlar. Xaricdə təsir altına düşürlər, onların Vətənə, Azərbaycana bağlılığı itir" və sairə (qafqazinfo.az).**

Açığı, bu tip münasibətləri Zahid Oruc və ya Fərəc Quliyev bildirəndə mümkün qədər çalışıram heç diqqətdə saxlamayım. Amma Sabir Rüstəmxanlının ya vəlvələdən, ya zəlzələdən - el arasında müəyyən hörməti hələ qalır, məncə, gərək o, belə söhbətlər eləməsin. Kimə nə dəxli var xaricdə oxumağın? Hansı gənc özünə təhsil və yaşamaq yeri seçirsə, bunu niyə Rüstəmxanlıdan soruşmalıdır? BMT insan haqları konvensiyası var: "Hər kəsin təhsil hüququ və yaşamaq yerini azad seçmək hüququ vardır". Üstəlik, Azərbaycanı nə günə salmısınız ki, hələ adamlar bu vətənə bağlı da olsunlar?

Biz bu vətənə bağlıyıq, tamam. Amma bilirsinizmi bu "bağlı" nə deməkdir? Bu bağlılıq getdiyimiz bütün qapıların, çıxdığımız bütün yolların üzümüzə bağlı olması deməkdir. Çox simvolikdir, elə bugünlərdə Bakıda bir çox yolları hissələrə bölüblər, "Avropa Oyunları" zolağına çıxanları 40 manat cərimə edirlər. Sən əgər yaxşı deputatsansa, bundan danış. Adamlar xarici idmançının hələ 10 gün sonrakı səfərinə hazırlıq məqsədilə öz yollarında cəriməyə məruz qalır, bu isə xarici təsirdən-zaddan danışır.

İnsanları internetdə yazdığı statusa görə tutub zindana salırlar, sən də deyirsən gəlib bu xarabada oxusunlar. Sərhəddən buraxan yoxdur, bir də bilet pulu tapılmır, yoxsa bir gün səhər ayılıb ölkədə Oqtay Əsədovla elə özünüzün qaldığınızı görərsiniz. Yaxşı olar Güney Azərbaycan, DAK-ŞAK mövzusunda ticarətinizi davam etdirəsiniz, ölkədaxili işlər nəyinizə lazımdır? Həm də bilmək olmur kimin ayağını tapdalayırsan, sonra bunun altını çəkmək var. Misal üçün, Musa Urudu adamın üstünə salırlar, qalırsan yazıq günündə.

Ümumiyyətlə, Azərbaycanda bir qisim şəxslər var ki, əfsanələrlə özlərinə pis-yaxşı karyera qurub yaşayırlar, heç kim də bunlara bir söz demir. Görünür vaxtında demək lazımdır. Belə şəxslərdən biri guya ekoloq alim olan Telman Zeynalovdur. Təzəlikcə uşaqlar Zeynalovun gülünc açıqlamasını tapıb yaymışdılar. Adam deyir ki, Hindistanda istidən 1500 adamın ölməsi Amerikanın-filanın iqlim silahı üzündəndir. Həmid Herisçi tektonik silahla döyüşür, bu da iqlim silahı ilə.

Halbuki, indi 1 iyun bayramını qeyd edən burnufırtıqlı uşaqlar da bilir ki, iqlim silahı deyə bir şey yoxdur, bu bir hipotezadır, nağıldır. Çox uzun getmədən bircə sadə səbəbini yazım: iqlim hadisələri o qədər geniş sahədə, o qədər çoxlu qüvvə hesabına meydana gəlir ki, bunu cəmləşdirib harasa yönəltmək həm imkansızdır, həm də sərf eləməz. Bulud, külək dövlət sərhədi tanımır - bu da var. Amma internetdə baxsanız həmin bu Telman Zeynalovun başqa karikatur izahatlarına rast gələrsiniz. Misal üçün, keçən il bu adam penoplast örtükləri ekoloji təmiz, yanmayan material adlandırıb. Görəsən indi utanırmı? Əlbəttə, yaşlı adamdır, neynəyir utanmağı. Üstəlik bizim ölkədə utanmaq özü utandırıcı hərəkət sayılır.

Mən alimlərimizə və deputatlara bir ideya vermək istərdim: gəlin pul basaq, Holfstrim cərəyanını döndərək, Avropada həyat çezib getsin. Həm uşaqlar xaricdə təhsildən qayıtsın, həm də hindistanlılar yaşasın. Biz də gedək Prezident Administrasiyasının qabağında Ciminin mahnılarını oxuyaq.




# Qaz müharibəsində yeni mərhələ başlayır

## TANAP və TAP növbəti sınaq qarşısında; Rusiya bu müharibədə son "kozır"ını da işə salıb; Azərbaycan prezidentinin narahatlığı boşuna deyilmiş; Bakıda gözlənilən Əliyev-Putin-Ərdoğan "üçlü görüşü" əsas suala aydınlıq gətirə bilər...

**Avropa Birliyi və ABŞ Rusiyanın "Türk axını" (əvvəlki adı "Cənub axını") qaz kəməri layihəsini əngəlləmək üçün səylərini davam etdirir. Artıq real nəticə də var: Birləşmiş Ştatların diplomatik-siyasi təzyiqləri altında mühüm tranzit ölkələrdən olan Serbiya və Makedoniya Moskvanın layihəsinə dəstəyini faktiki, geri çəkib.**

Belə ki, az öncə NATO və Avropa Birliyinə üzv olmağa çalışan Belqrad rəsmən TAP layihəsini müdafiə etdiyini, rəsmi Skopye isə "Türk axını"na yalnız Brüsselə Moskva arasında məsələyə dair razılıq əldə olunduqdan sonra qoşula biləcəyini bəyan edib. Brüssel isə "Türk axını"na qarşıdır, çünki Avropanın Rusiya qazından asılılığını azaltmaq xətti yürüdür. Bu xətt də məhz TANAP və TAP (transxəzər qaz) layihələrini gerçəkləşdirməyi zəruri edir.

*****

Rusiya təbii ki, bunu bilir və qaz mübarizəsindən geri çəkilmək əzmində deyil. Bu mübarizə çoxşaxəlidir və rəqib kəmər layihəsinin iştirakçı dövlətlərinə diplomatik-siyasi, hətta hərbi xarakterli təzyiqlərlə yanaşı, müəyyən şirniklendirici, stimullaşdırıcı təklifləri də özündə ehtiva edir. Söhbət öncəliklə hər iki layihə üçün - "Türk axını" və "Cənub qaz azını" (TANAP, TAP) üçün tranzit marşrutun ən önəmli və həssas ölkəsindən - Yunanıstandan gedir.

Yada salaq ki, "Türk axını" Yunanıstanla sərhədə məhz TANAP kəməri ilə eyni nöqtədə çıxacaq. Oradan da o, TAP kəmərinə birləşdiriləcək. "Qazprom" isə "Türk axını" ilə nəql olunacaq təbii qazı həmin məntəqədə yaradılacaq habda müştərilərə təhvil verməyi planlaşdırır. Odur ki, Rusiya-Qərb qaz savaşı indi əslində daha çox Yunanıstan uğrunda gedir. Həm də o səbəbə ki, bu, təkcə energetika məsələsi deyil, geosiyasi, siyasi məsələdir.

*****

Təsadüfi deyil ki, bu arada "Qazprom" şirkəti mübahisəli "Türk axını" kəmərinin Yunanıstandan keçən hissəsinin tikinti xərclərini də öz üzərinə götürməyə hazır olduğunu bildirib. Virtualaz.org-un verdiyi xəbərə görə, bu haqda "Kommersant" Rusiyanın qaz monopolistinin rəhbəri ilə Yunanıstanın energetika naziri Panayiotis Lafazanislə ötən həftə Moskvada aparılmış danışıqların nəticələrinə istinadən yazıb.

"Türk axını" layihəsinin Avropada şübhə ilə qarşılandığı bir vaxtda "Qazprom" danışıqlara sonuncu və ən təsirli aləti daxil edir - pul. Bu vaxtadək kəmərin quru hissəsinin tikintisini üzərinə götürməkdən imtina edən "Qazprom" mövqeyini dəyişib və ən azından Yunanıstana kəmərin tikintisini maliyyələşdirmək variantını təklif edib. "Türk axını"nın sələfi olan "Cənub axını" kəmərini də məhz bu sxemlə inşa etmək nəzərdə tutulmuşdu" - qəzet qeyd edib.

"Türk axını" kəmərinin Yunanıstandan keçən hissəsinin tikintisi isə 2 milyard avroya başa gələ bilər. İndiyədək "Qazprom" Yunanıstana ancaq onu vəd edirdi ki, bu kəmərlə iştirakçı ölkələrin ərazisindən qaz nəqlinə təminat verir. Bu isə iştirakçı ölkələrə kəmərin inşası üçün kreditlər cəlb etməyə imkan yaradacaq. Öz növbəsində Afina Rusiyadan milyardlarla avro dövlət krediti almağı və sonradan onu "Türk axını"ndan əldə ediləcək tranzit gəlirləri hesabına qaytarmağı nəzərdə tuturdu. Ancaq Moskva kredit verməyə razı olmayıb, hətta etiraf edib ki, bunu etmək mümkün deyil. Çünki Yunanıstanın iri kreditoru olan Avropa Birliyi bu ölkənin digər mənbələrdən maliyyələşməsinə əngəllər yarada bilər.

*****

Sirr deyil ki, "Türk axını" kəməri Azərbaycan qazını Avropaya çatdıracaq Cənub Qaz Dəhlizinə rəqib layihə kimi də nəzərdən keçirilir. Hərçənd ki, SOCAR bu layihədən narahat olmadığını açıqlayıb. "Qazprom" isə hazırda birtərəfli qaydada kəmərin Qara dənizin Rusiyanın iqtisadi zonasına aid hissəsində tikintisini başlatdığını elan edib.

Türkiyə tərəfi hələlik bu layihəyə dair hansısa razılaşma imzalamayıb. Ankaranın mövqeyi Türkiyədə yaxın günlərdə keçiriləcək parlament seçkilərindən sonra dəqiqləşə bilər. Analitiklərin qənaətincə, "Qazprom"un Yunanıstanı cidd-cəhdlə "Türk axını" kəmərinə qoşmaq səylərində ən ciddi "kozır"ı ortaya atması vəziyyəti onun xeyrinə dəyişdirə bilər.

ABŞ və Avropa Birliyi isə Yunanıstana təzyiqləri davam etdirir ki, Afina layihədən uzaq dursun və Azərbaycan qazını Avropaya nəql edəcək TAP kəmərinin tikintisinə başlasın. Lakin Yunanıstanın energetika naziri bir daha təsdiq edib ki, onun ölkəsi "Türk axını" layihəsini dəstəkləyir...

*****

Beləcə, iki layihə uğrunda rəqabət gizli-açıq şəkildə davam edir və faktiki, yeni fazaya keçib. Azərbaycan da belə görünür, gedən proseslərin fərqindədir və müəyyən dərəcədə narahatdır. Buna prezident İlham Əliyev son 28 May-Respublika Günü münasibətilə etdiyi çıxışında işarə də vurub. Ölkə başçısı həmin çıxışda demişdi: **"Əlbəttə ki, bizim bazarlara çıxışımızla bağlı konkret addımlar atılır. Əgər TAP layihəsinə hansısa problem yaranarsa, o zaman biz qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik. Hər halda, onu qeyd etməliyəm ki, bazarlarla bağlı bizim heç bir narahatlığımız yoxdur. Sadəcə olaraq, TAP iştirakçılarının hamısı gərək məsuliyyətli davransınlar və süni şəkildə problem yaratmasınlar".**

Göründüyü kimi, İlham Əliyev bütün hallarda Azərbaycan qazının Rusiyadan yan keçməklə Avropaya çatdırılması strategiyasına Bakının sadiq qaldığını təsdiq edib ki, bu da əslində yenə Rusiyanın qaz maraqlarına uyğun deyil. İstisna edilmir ki, Bakıda I Avropa Oyunlarının açılış mərasimi bu və digər məsələlərin də tet-a-tet müzakirəsi üçün unikal fürsət yaratsın.

Bəllidir ki, mərasimə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putinin qatılacağı rəsmən elan edilib. Qardaş Türkiyə ilə Azərbaycanın mübahisə doğuracaq problemi yoxdur. Putinin mətbuat xidməti isə açıqlama yaymışdı ki, Rusiya liderinin Bakıya işgüzar səfərinin gündəliyi az sonra açıqlanacaq. Bu, o anlama gəlir ki, Kreml başçısının Bakı ziyarəti sırf Avropa Oyunları ilə də bağlı deyil və ikitərəfli, hətta mümkündür ki, üçtərəfli formatda (Əliyev-Putin-Ərdoğan) müzakirə edilən ortaq məsələlər ola bilər.

**❑ Siyasət şöbəsi**

**Prezident İlham Əliyevin Avropa İttifaqının Riqa sammitində iştirak etməməsi və Bakının Brüsselə assosiativ saziş imzalamaması Kremldə müsbət qarşılandı. Çünki Moskva Avropa İttifaqının Şərq Tərəfdaşlıq Proqramını çərçivəsində imzalanan assosiativ sazişləri Rusiya əleyhinə yönəlmiş siyasət hesab edir. Təsadüfi deyil ki, Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Aleksandr Lukaşeviç Riqa sammitini sərt tənqid etmişdi. Bu tənqid həm Brüsselə, həm də Avropa İttifaqı ilə assosiativ saziş imzalamaq istəyən dövlətlərə xəbərdarlıq idi.**

# Rusiya Qarabağda qoşun yerləşdirmək istəyir

## Üç prezidentin iyunun 12-də Bakıdakı görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və ortaq sülhməramlı qüvvələrin yaradılması mövzusu müzakirə oluna bilər

Əslində Riqa sammitində uğur qazanılmadı. Bu, Moskvanın istəyinə uyğun idi. Şərq Tərəfdaşlıq Proqramının 6 ölkəsindən 3-ü *(Ermənistan, Belarus və Azərbaycan)* Avropa İttifaqı ilə assosiativ saziş imzalamadı. Doğrudur, İrəvan və Minskdən fərqli olaraq Bakının Brüsselə assosiativ saziş imzalamamasının daxili səbəbləri var. Rəsmi Bakı Avropa İttifaqının assosiativ saziş vasitəsilə Azərbaycanın daxili işlərinə qarışmasını istəmir. Ancaq Bakının bu sazişi imzalamaması Moskvaya da bir jest idi ki, Azərbaycan hakimiyyəti Kremlin regional maraqlarını nəzərə almağa hazırdır. Təsadüfi deyil ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Riqadan sonra birbaşa Moskvaya getdi. Məmmədyarovu Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrov gözləyirdi.



Məmmədyarovun Lavrovla danışıqlardan sonra verdiyi açıqlamaları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**"Dağlıq Qarabağ münaqişəsinin həllinin vaxtı çatıb". Məmmədyarovun bu mesajı birbaşa Rusiyaya ünvanlanıb. Yəni Moskva istəsə İrəvana təzyiq edib, Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılmasına nail ola bilər;**

**"Azərbaycan Rusiyanın Avrasiya İqtisadi Birliyinə üzv ola bilər". Ancaq bunun başlıca şərti Dağlıq Qarabağ münaqişəsinin həllidir. Yəni əgər Kreml Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzv olmasını istəyirsə, Dağlıq Qarabağ münaqişəsinin həllini təmin etməlidir.**

Beləliklə, rəsmi Bakının Kremlə ümidi yenə artıb. Bu ümid 2000-ci ildə Vladimir Putin Rusiya prezidenti olduqda da yaranmışdı. O zaman Putin ilk xarici səfərini Azərbaycana etdi və keçmiş prezident Heydər Əliyevlə görüşdü. Putin üçüncü ölkələrdən çeçenlərə Azərbaycan üzərindən silah göndərilməsinin dayandırılmasını Bakıdan xahiş etmişdi. Heydər Əliyev Putinin bu istəyini yerinə yetirdi. Bundan başqa, Bakıda çeçenlərin nümayəndəliyi bağlandı. Ancaq bunların qarşılığında Putin Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirmədi.

Bakının ikinci ümidi Dmitri Medvedyevin prezidentliyi dövründə yarandı. Medvedyev Bakıya səfər edərək Azərbaycanla müxtəlif sazişlər imzaladı. Bakı Moskva ilə istənilən sahədə əməkdaşlığın genişləndirilməsinə hazır idi. Bakının Moskvadan yeganə istəyi, həmişəki kimi, Kremlin Dağlıq Qarabağ münaqişəsinin həllində İrəvana təsir etməsi idi. Medvedyevin prezidentliyi dövründə Azərbaycan və Ermənistan prezidentləri 10 dəfə görüşdülər. Ancaq bu görüşlər nəticəsiz qaldı. Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razılıq vermədi. Kreml bu məsələdə İrəvana təsir etmədi.

Bakı yenə Moskvaya ümidlidir. Çünki Bakı bu dəfə də Moskvanın istəyinə uyğun addım atıb, Avropa İttifaqının sazişinə imza atmayıb. Ancaq Moskvanın bu dəfə də Dağlıq Qarabağ münaqişəsinin həllinə maraq göstərəcəyi problematikdir. Bunu Sergey Lavrovun Məmmədyarovla birgə mətbuat konfransında söylədiyi fikir də sübut edir. Lavrov dedi ki, münaqişənin həlli üçün birinci növbədə Azərbaycanla Ermənistan razılığa gəlməlidirlər. Ancaq bu mümkün deyil. Ermənistana kənar təsir və təzyiq olmayınca Qarabağla bağlı razılıq alınmayacaq.

Bu arada, Rusiya mətbuatında Qarabağ xanlığının Rusiya imperiyasının tərkibinə daxil olmasının 210 illiyinə dair məqalələr yayımlanıb. Qarabağ xanlığı 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olmuşdu. Rusiya mətbuatının bu mövzuya toxunmasının arxasında Bakıya mesajlar ola bilər. Rusiya Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi əvəzinə "sülhməramlı qüvvələr" adı altında bölgəyə silahlı qüvvələrini yerləşdirmək istəyir.

Rəsmi Bakı bu təklifə hələ ki razılaşmır. Çünki Dağlıq Qarabağ məhz SSRİ və Rusiya qoşunlarının bölgədə olduğu dönəmdə işğal olunmuşdu. Erməni separatçılarını silahla təmin edən Dağlıq Qarabağdakı Rusiyanın hərbi bazaları idi. Rusiyalı generallar separatçılara Azərbaycan əleyhinə dəstək verirdilər. Odur ki, yenidən Dağlıq Qarabağda Rusiya silahlı qüvvələrinin yerləşdirilməsi Azərbaycana yenidən problem yarada bilər. Rusiya silahlı qüvvələri Dağlıq Qarabağda yerləşdirilərsə bir daha ordan çıxmayacaqlar. Necə ki, Abxaziya, Cənubi Osetiya və Krım işğal olunaraq Rusiyanın nəzarətinə keçdi. Rusiya silahlı qüvvələrinin Dağlıq Qarabağda yerləşdirilməsi Kremlin daima Bakının daxili və xarici siyasətinə təsir etmək imkanları qazandıracaq.

Buna baxmayaraq, Bakı Moskvaya ümidini itirməyib. Rusiya prezidenti Vladimir Putin iyunun 12-də Bakıya Avropa Oyunlarının açılışına gələcək. Məmmədyarov bu səfər zamanı çox geniş müzakirələrin aparılacağını deyib.

Başqa bir variant Dağlıq Qarabağda həm Rusiya, həm də Türkiyə silahlı qüvvələrinin yerləşdirilməsidir. Rusiya hərbçiləri Dağlıq Qarabağın erməni əhalisini, Türkiyə hərbçiləri isə bölgəyə qayıdan azərbaycanlıların təhlükəsizliyini qoruyacaq. Ancaq bu variantın reallaşması üçün işğal altındakı bütün torpaqların boşaldılması və Dağlıq Qarabağın Azərbaycanın yurisdiksiyası altına qayıtması lazımdır. Bakıda keçiriləcək Avropa Oyunlarının açılışına Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da gələcək. Bu mənada 3 prezidentin Bakıdakı görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və ortaq sülhməramlı qüvvələrin yaradılması mövzusu müzakirə oluna bilər.

Kreml Dağlıq Qarabağ münaqişəsini həm də ona görə həll etmək istəmir ki, Azərbaycanı enerji bazarında özünə rəqib görür. Bakı Brüsselə assosiativ saziş imzalamasa da, Avropa İttifaqı ilə geniş enerji əməkdaşlığına hazırlaşır. Moskva TAP və TANAP boru xətlərini özü üçün təhlükə kimi görür. Rəsmi Bakının "bu siyasi layihə deyil" açıqlamaları da Moskvanı sakitləşdirmir. Çünki Brüssel TAP və TANAP vasitəsilə Azərbaycanla yanaşı, Türkmənistan və İran qazını da Avropaya çatdırmaq istəyir. Bu isə Rusiyanın Avropa bazarındakı monopoliyasına son qoyacaq. Ona görə də Moskva Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməklə Bakının problemlərini azaltmaq istəmir.

❑ **"Atlas" Araşdırmalar Mərkəzi**

# Biz nədə israr edirik?



**Hüseynbala SƏLİMOV**

**Bəli, çox az qalıb. Bu yazı işıq üzü görəndə bir az da az qalacaq. Yəqin ki, bildiniz. Söhbət Avropa Oyunlarından gedir. Vaxt azaldıqca həyəcan da artır və biz bir daha hər şeyi götür-qoy etməyə başlayırıq...**

Bu həyəcan idmançılarımızla bağlı deyil: kim güclü, çevik, texnikalı və iradəli olacaqsa, qələbə də onun olacaq...

Bu həyəcan texniki məsələlərlə də bağlı deyil. Ən azı rəsmi xəbərlərə görə hər şey öz qaydası ilə gedir...

Həyəcan daha çox siyasi xarakterlidir. Avropa Parlamentinin sədrindən gileylənirlər. Deyilənə görə, bu qurumda yaxın günlərdə Azərbaycanda insan haqlarının vəziyyəti ilə bağlı dinləmələr keçiriləcək...

Elə təsəvvür yaranmasın ki, biz bunu təqdir edirik. Yox, əsla. Hamıdan çox istəyirik ki, bu oyunlar necə var, heç bir problem olmadan keçsin. Amma sadə bir məntiq var: od yanmasa tüstü çıxmaz...

Bizim həmin avropalı siyasətçinin bioqrafiyası ilə bağlı elə bir məlumatımız yoxdur. Bilmirik bu vaxta qədər hansı bəyanatları verib, hansı çıxışları edib və kiminlə daha çox əməkdaşlıq edir?..

Bir daha deyirik ki, bunlardan xəbərsizik. Amma gərək adam sözün düzünü desin: axı Azərbaycanda insan haqları və demokratiya ilə bağlı elə həqiqətən də ciddi problemlər var-hüquq müdafiəçiləri 10-15 siyasi məhbusun adını hallandırırlar...

Bu problemə göz yummaq elə də asan deyil. Bəli, yaxşı haldır ki, Milli Şuraya mitinq keçirməyə icazə verirlər. Yaxşı haldır ki, jurnalistlərə və mətbu orqanlarına diqqət yetirilir. Yaxşı haldır ki, bütün partiyalarla olmasa da, əksər partiyalarla görüş keçirilir, hərçənd ki, bu görüşlərdə həmin partiyaların təmsilçiləri daha çox dinləməklə məşğul olurlar... Qərəz, belə yaxşı halları çox sadalamaq olar...

Amma Azərbaycan azad ölkə deyil. Burada azadlığı bir qədər irrasional mənada başa düşürlər: adamın əlini hər şeydən üzür, sonra da deyirlər ki, get, azad yaşa...

Azadlıq hüquqda ifadə olunmalıdır. Əgər mənim hüququm yoxdursa və yaxud da çox məhduddursa, mən özümü necə azad hesab edə bilərəm?..

Bunu düşünmürlər. Daha doğrusu, düşünmək istəmirlər. İndi beş-on siyasi məhbus var. Nə olar, gəlin onları azad edək!.. Qoy, bu da bir siyasi jest olsun və düzü-dünya görsün ki, bu ölkə normal bir ölkədir...

Olimpiya oyunları da əslində böyük bir bayramdır. Biz necə razı oluruq ki, bəzi vətəndaşlarımız həmin bu bayramı məhbəsdə keçirsinlər?..

Düzü, mən may ayında amnistiya gözləyirdim. Amma olmadı. Yenə də bir vətəndaş kimi ümidimi üzməyirəm, hərçənd ki, bundan sonra amnistiyanın olması elə də ehtimallı görünmür. Amma bu, bizim ölkəyə bir başucalığı, bir fəxarət gətirərdi...

Həm də problem tək beş-on siyasi məhbusda da deyil. Oyunlar bitəcək, ən azı vaxt bizi parlament seçkisi ilə məşğul olmağa vadar edəcək və o vaxt hər şeyi unudacağıq - həmrəyliyi də, qardaşlığı da, hətta vətəndaşlığı da!..

Bəli, yenə də məlum olacaq ki, mandatların hamısını hakim partiya qazanıb, digər partiyalar isə cəmi bir mandat əldə edə biliblər! Bu, elə tanış ssenari, elə tanış musiqidir ki, adamı artıq təkcə bezdirmir, əhvalını tamam korlayır...

Bu yaxınlarda çox yüksək səviyyədə ictimai nəzarətin vacibliyindən danışıldı.

Telekanallar dərhal buna reaksiya verdilər. Hətta bəziləri dedi ki, bəlkə həmin bu çağırış medianı ölüvay vəziyyətdən qurtara!..

Deməli, biz özümüz də, hətta hakimiyyətlə çox yaxın münasibətlərdə olan media strukturlarının təmsilçiləri də etiraf edirlər ki, bütövlükdə media ölüvay vəziyyətdədir.

İndi sizdən soruşuram, bunun özü problem deyilmi? Bunu ki, Avropa Şurasının təmsilçisi və yaxud da sədri demir! Biz özümüz deyirik! Bəli, biz özümüz etiraf edirik ki, ölkədə ictimai nəzarət yox səviyyəsindədir, media ölüvay bir durumdadır...

Deməli, hökumətin öz içində daha bir struktur yaratmaqla ictimai nəzarət bərpa olunmur... Deməli, jurnalistlərə mənzil verməklə, hətta qəzetlərə maddi yardım etməklə də iş düzəlmir... Deməli, problemin kökünə getmək lazımdır...

Amma bunu etmirik. Əvəzində isə kimisə qınayırıq. Bəlkə daha çox özümüzü qınayaq?..

Bəlkə problemin görüntüsü, təzahürləri ilə yox, özü ilə mübarizə aparaq, bəlkə problemin özünü həll etməyə çalışaq?..

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2016

# Türkiyədən seçkiqabağı giley və sevgi mesajı

**Artıq Türkiyədə parlament seçkiləri ilə bağlı qızğın kampaniyanın son həftəsidir. İyunun 7-də keçiriləcək Türkiyə Böyük Millət Məclisinə seçkilərdə qalib gəlmək üçün gedən yarışlarda xoşagəlməz hadisələr müşahidə olunsa da, ümumən gərgin keçən mübarizə özəlliyi ilə diqqət çəkir.**

Azərbaycan üçün də xüsusi önəmli cəhətlərini nəzərə alıb seçkiləri "Yeni Müsavat" olaraq mütəmadi şəkildə diqqətdə saxlayırıq. Qardaş ölkənin uğurları təbii ki, hər bir azərbaycanlının ürəyini qürurla doldurur və parlamentə seçkilərdə də türklüyə, Türkiyəyə fayda verəcək qüvvələrin və şəxslərin mandat sahibi olmasını arzulayırıq. Seçkilərdə Azərbaycanı ikinci Vətən sayan iki qan qardaşımız, MHP-nin namizədləri Atilla Kaya və İsa Yaşar Tezelin də seçimlərdə böyük səs çoxluğu ilə rəqiblərini geridə qoyacağına və parlamentdə həm də Azərbaycanın səsi olacaqlarına şübhəmiz qalmayıb. Hazırda gərgin seçki kampaniyası olduğundan Atilla bəylə seçki kampaniyasının son günləri barədə danışmaq mümkün olmadı.



**İsa Yaşar Tezel:** "Azərbaycan bizi tək buraxdı, buna baxmayaraq, hər zaman Azərbaycanın səsi olacağam"



**Pənah Hüseyn:** "Həm İsa Yaşar Tezel, həm Atilla Kaya, həm də digər dostlarımızın uğur qazanması üçün təmənna edirik"



**Aydın Mirzəzadə:** "Türkiyə və Azərbaycan dost-qardaş ölkələr olsa da, Azərbaycan qardaş ölkənin daxili işlərinə qarışmır"

**İqdırdan namizəd olan MHP-nin Azərbaycan əsilli namizədi İsa Yaşar Tezel isə "Yeni Müsavat"a açıqlamasında seçki kampaniyasının gedişindən razılığını bildirdi:** "İnşallah, cümə günü İqdırda böyük bir mitinqimiz olacaq". **İsa Yaşar bildirdi ki, onun səslərinin parçalanması üçün qurulan planlar baş tutmayıb və artıq təhlükə sovuşub:** "Millətimiz bütün bu planların mahiyyətini başa düşdü və odur ki, həmin qüvvələr öz istəklərinə çata bilməyəcəklər. İnşallah, millət vəkili kimi parlamentdə fəaliyyət göstərəcəyimizə inanırıq".

**Ancaq İsa Yaşar Tezel Azərbaycandan gözlədiyi dəstəyi ala bilməməsindən təəssüfünü ifadə etdi:** "Azərbaycan bizi tək buraxdı. Bunun səbəblərini bilmirəm. Mən hər zaman demişəm, yenə də deyirəm, buna baxmayaraq, hər zaman Azərbaycanın səsi olacağam. Mən elə "Yeni Müsavat" vasitəsilə sözümü demişdim, çağırışımı etmişdim, amma təəssüf ki, diqqətə alan olmadı. Türkiyədə mənə verilən dəstəkdən isə çox razıyam. Xaricdə yaşayan 20-yə yaxın qardaşım mənə köməyə gəlib, hər an yanımdadırlar. Xahiş edirəm yaz, Azərbaycandan inciyəm, amma yenə də Azərbaycanı sevirəm. İstərdim ki, Azərbaycan mənə kömək olsun, dəstək versin, amma olmadı. Bununla belə, Azərbaycana sevgim dəyişməzdir".

İsa Yaşar MHP-nin seçkilərdə 20 faiz səs toplayacağına da əminliyini ifadə etdi və koalision hökumətdə yer alacağını vurğuladı.

"Mən Türkiyə vətəndaşlarının seçiminə hörmətlə yanaşmağın tərəfdarıyam. Seçim nə olacaqsa, biz də onun türk dövləti və milləti üçün xeyirli-uğurlu olmasını arzulayırıq". AXP sədri Pənah Hüseyn bunu qəzetimizə bildirdi. Əlavə etdi ki, Türkiyədəki seçkilərdə iştirak edən dostlarının qalib olmasını arzulayır: "İlk növbədə həmin dostlarımıza uğur arzulayırıq. Həm İsa Yaşar Tezel, həm Atilla Kaya, həm də digər dostlarımızın uğur qazanması üçün təmənna edirik. Çox çətin, çox gərgin dünyadakı vəziyyətdə əlbəttə ki, bu seçkilərin Türkiyə üçün faydalı olacağı və müəyyən problemləri həll edəcəyinə ümidimiz var".

**Hakim partiyanın Türkiyədəki seçkilərə münasibəti barədə YAP-çı deputat Aydın Mirzəzadə ilə danışdıq. O bildirdi ki, Türkiyə və Azərbaycan dost-qardaş ölkələr olsa da, Azərbaycan heç bir halda qardaş ölkənin daxili işlərinə qarışmır və qarışmaq fikrində də deyil:** "Türkiyə tarixən oturuşmuş, nüfuzlu və demokratik dəyərlərə malik olan bir ölkədir. Türkiyə cəmiyyəti öz inkişaf yolunu həmişə özü seçib. Bu dəfə də o özü seçim edəcək və bundan sonrakı 4 illik taleyini etibar etdiyi qüvvələrə tapşıracaq. Azərbaycan Türkiyə seçicisinin seçiminə çox böyük hörmətlə yanaşacaq. Biz ilk növbədə bu seçkilərin Türkiyə dövləti üçün bir sınaq olduğunu düşünürük. Bu sınaqla Türkiyə özünün demokratik ölkə olduğunu təsbit edəcək. Türkiyə qarşısındakı problemləri həll etmək iqtidarında olan bir iqtidarı hakimiyyətə gətirəcəyini göstərəcək. Türkiyə bir sıra məsələlərdə olduğu kimi, seçkilər məsələsində də dünyaya nümunə olduğunu bir daha göstərəcək".

❑ **Elşad PAŞASOY**

# "Oyunlar zolağı"nda çıxarılan oyun...

## Yolların sarı xətlə işarələnməsi cərimələrin sayını artırıb; sürücülər barəsində tətbiq olunan protokollar narazılıq doğurub




**Xəbər verildiyi kimi, mayın 29-dan etibarən Bakıda Avropa Oyunları ilə əlaqədar sarı xətlə işarələnmiş "Oyunlar zolağı"na nəqliyyat vasitələrinin girişinə rəsmən qadağa qoyulub. Sarı xəttin üzərinə çıxan sürücülər barəsində dərhal protokol tətbiq olunur. Zolaqlar "Bakı-2015" loqosu ilə işarələnib.**

Bir ay öncədən KİV-lər vasitəsilə xəbərdarlıq olunmasına baxmayaraq, hər keçən gün cərimələnən sürücülərin sayı artmaqdadır. Müvafiq olaraq, 40 manat məbləğində cərimə tətbiq olunur.

Qeyd edək ki, sarı xətlər çəkiləndən sonra tıxacların sayı kəskin şəkildə artmağa başlayıb. Yaranan tıxac və sıxlıq gecə saatlarına qədər davam edir. "Oyunlar zolağı"na daxil olmayan sürücü saatlarla tıxacda qalmalı olur. Bu problemlərin qarşıdakı günlərdə sürücülərə daha çox problem yaradacağı proqnozlaşdırılır.

**Daxili İşlər Nazirliyinin (DİN) Respublika Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev "Oyunlar zolağı"nın yaradılmasının səbəblərindən danışdı:** "Ayın 1-dən etibarən rəsmi şəkildə qadağa qoyuldu. İşə cəlb olunmuş və yarışdan öncə xidməti həyata keçirən şəxslərin orada olmaları nəzərə alınaraq, belə bir qərar verildi. Bu müddət elə də çox deyil. Oyunların başlamasına 10 gün qalır. Bu günlər ərzində o komplekslərə gedəcək avtomobillərin sayı çoxdur. Söhbət buraxılışı olan nəqliyyat vasitələrindən gedir. Biz martın 1-dən əhaliyə müraciət etmişik, konkret zamanı da göstərmişik. Çalışırıq ki, şəhər daxilində nəqliyyat sıxlığı yaranmasın. Rayonlarda və Bakının qəsəbələrində yaşayanlar nəqliyyatdan az istifadə ediblər. Nəticədə sıxlıq olmayıb. İnanıram ki, bundan sonrakı günlərdə də şəhər sakinlərimiz nəqliyyatdan az istifadə edəcəklər. Nəticədə sıxlıq halları olmayacaq".

**Kamran Əliyev şəhərdə sıxlıq hallarının ola biləcəyini də vurğuladı:** "Tıxac Ziya Bünyadov prospektində olub. Orada bir zolaq işarələnib, Avropa Oyunlarının avtomobilləri üçün nəzərdə tutulub. Bir balaca sıxlıqlar olur və olacaq. Qeyd edim ki, sıxlıq olan yollarla alternativ yollar da var. Sürücülər digər yollardan da istifadə edə bilərlər. Kifayət qədər alternativ yollarımız var".

**Kamran Əliyev cərimələrin yaratdığı narazılıqlara da toxundu:** "KİV-lərdə bu məlumat çoxdan gedir. Ən azı mart ayında təkcə Bakı yox, respublika sakinlərinə dəfələrlə məlumat vermişik. Rəsmi müraciətlərimiz olub. Hər sakinə bir-bir məlumat verə bilmərik. Qanunvericilikdə sürücünün hansı hallarda cərimələnməsi üçün maddələr var. Əgər sürücü nişanı görürsə, bilərəkdən qaydanı pozursa, ya həmin ərazidəki əməkdaşlarımız tərəfindən cəzalandırılacaq, ya da kamera vasitəsilə haqqında protokol tətbiq edilərək, ünvanına göndəriləcək. Ona görə də sürücülərimiz çalışsınlar ki, qayda pozuntusuna yol verməsinlər".

❑ **Cavanşir ABBASLI**

# ATƏT rəsmisi İlham Əliyevlə şəkil çəkdirdiyinə görə işdən qovuldu

## Aleksis Şahtaxtinski: "Mən naxçıvanlı, şahtaxtlıyam..."

**ATƏT-in Azərbaycandakı nümayəndəsi Aleksis Şahtaxtinskinin fəaliyyət mandatı dayandırılıb. Bu barədə Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov özünün twitter hesabında yazıb: "Məlumat aldım ki, ATƏT-in Azərbaycandakı nümayəndəsi Aleksis Şahtaxtinskinin fəaliyyət mandatı dayandırılıb.**

Diplomatik dairələrdə bunun əsas səbəbini ABŞ-ın ATƏT-dəki səfirinin mövqeyi ilə izah edirlər. ABŞ-ın ATƏT-dəki səfiri D.Bayer Aleksis Şahtaxtinskiyə irad tutub ki, sən niyə ölkənin başçısı ilə şəkil çəkdirmisən. Belə çıxır ki, Şahtaxtinski səfir Bayerlə şəkil çəkdirsəydi, onun gələcək karyerası çox uğurlu olardı". Maraqlıdır ki, bu hadisə ATƏT-in fəaliyyətdə olan sədri, Serbiyanın baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri ilə eyni vaxta təsadüf edir. Sputnik.az saytının məlumatına görə, ATƏT-in Bakı ofisi qurumun Azərbaycandakı nümayəndəsi Aleksis Şahtaxtinskinin fəaliyyətini dayandırması ilə bağlı məsələyə şərh verməkdən imtina edib.

Diplomatik mənbələrdən sputnik.az-a verilən məlumatda isə bildirilir ki, cari il mayın 31-də Şahtaxtinckinin müqavilə müddəti başa çatdığından onun geri çağırılması ilə bağlı ATƏT-in Vyana ofisi qərar verib: "Onun fəaliyyətinin dayandırılmasına Azərbaycan prezidenti ilə şəkil çəkdirməsinin səbəb olması barədə söylənilən fikirlər həqiqəti əks etdirmir."

Aleksis Şahtaxtinski ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi vəzifəsinə ötən ilin martında təyin olunub. Aleksis Şahtaxtinski 1967-ci ildə Strasburq şəhərində dünyaya gəlib. Atası Cahangir-Kamal (Jan) Şahtaxtinski Fransa Dənizçilik Akademiyasının zabiti və eyni zamanda, professoru olub. Anası Livanda fransız ailəsində doğulub. Sorbonna Universitetinin məzunudur. 6 dildə danışır.



Aleksis Şahtaxtinski

O, 1993-cü ildən diplomat kimi fəaliyyətə başlayıb. Aleksis Şahtaxtinski Azərbaycana təyinatından əvvəl Fransa Xarici İşlər Nazirliyinin Siyasətin Planlaşdırılması Mərkəzində fəaliyyət göstərib və Fransanın Avropa məsələləri üzrə nazirinin xüsusi müşaviri vəzifəsində çalışıb. Avropada təhlükəsizlik üzrə 20 ildən çox təcrübəyə malik peşəkar diplomat, Moskvada NATO İnformasiya Ofisinin rəhbəri, Belarus və Tacikistanda müvəqqəti işlər üzrə vəkil, Krakovda (Polşa) Fransanın baş konsulu vəzifələrində çalışıb. A. Şahtaxtinski həmçinin ATƏT-in Bakı Ofisi rəhbərinin müavini olub.

Qeyd edək ki, ATƏT-in Daimi Şurasının 26 iyul 2013-cü il tarixli qərarına əsasən 1 yanvar 2014-cü il tarixindən etibarən ATƏT-in Bakı Ofisi ATƏT-in Bakı Layihə Əlaqələndiricisi statusuna transformasiya olunub. "Yeni mandata uyğun olaraq mən hökumət və qeyri-hökumət qurumları, yerli hakimiyyət orqanları, universitetlər, Azərbaycanın elmi-tədqiqat institutları ilə əlaqələr yaradacağam. Komandamın üzvləri ilə birlikdə hər üç ölçüdə *(təhlükəsizlik, insan hüquqları, ekologiya- iqtisadi məsələlər)* layihələrin reallaşmasında ATƏT prinsip və öhdəliklərinin yerinə yetirilməsinə yardım göstərəcəyik" deyə, o, Bakıya təyinat alarkən bildirmişdi.

Bakıya təyinat almamışdan əvvəl o, Azərbaycanda olub və Naxçıvanda Məhəmməd ağa və Behbud ağa Şahtaxtinskilərin Şahtaxtlı kəndində ev muzeyinin açılışında iştirak edib. Aleksis Şahtaxtinski özü haqda belə deyir: **"Əlbəttə ki, mən azərbaycanlıyam, daha dəqiqi, naxçıvanlı, şahtaxtlıyam".**

❑ **Xəbər xidməti**

**İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirilən I Avropa Oyunları, ictimai davranış qaydaları və ictimai nəzarətə aid QHT layihələrinin icra vəziyyəti müzakirə olunub. Toplantıda çıxış edən Şura sədri, millət vəkili Azay Quliyev I Avropa Oyunları ərəfəsində keçirilən müzakirələrin vətəndaş cəmiyyəti institutlarının böyük idman tədbirinə hazırlıq səviyyəsini dəyərləndirmək və ona ictimai nəzarəti artırmaq məqsədi daşıdığını deyib. I Avropa Oyunlarının məhz Azərbaycanda keçirilməsinin bütün xalqımızın uğuru olduğunu bildirən Azay Quliyev ölkəmizə on minlərlə idmançı, məşqçi, jurnalist və idmansevərin gələcəyini qeyd edib.**

# "Prezidentin mesajı QHT-lərin də üzərinə mühüm vəzifələr qoyur"

## Ölkə başçısının ictimai nəzarəti gücləndirmək təşəbbüsünə QHT Şurasından dəstək gəldi

**Azay Quliyev** Mehriban xanım Əliyevanın rəhbərliyi altında "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin hazırlıq prosesini ən yüksək səviyyədə başa çatdırdığını bildirib və cəmiyyətimizin bütün təbəqələrinin bu prosesdə fəal iştirakının vacibliyini vurğulayıb. Şuranın I Avropa Oyunları və ictimai davranış qaydaları ilə bağlı 29 QHT-nin layihəsinə 300 min manata yaxın vəsait ayırdıqlarını bildirən Azay Quliyev təşkilatların fəaliyyətlərini media ilə yaxından əməkdaşlıq səviyyəsində qurmalı olduğunu deyib: "Cənab prezident İlham Əliyev 27 may 2015-ci il tarixli çıxışında bir daha bütün dövlət strukturlarının fəaliyyətinə ictimai nəzarətin artırılmasının vacibliyini vurğulayıb. Bütövlükdə cəmiyyətə verilən bu mesaj QHT-lərin də üzərinə mühüm vəzifələr qoyur. Biz QHT-lərin I Avropa Oyunları, ictimai davranış və mədəniyyət qaydaları ilə bağlı onlarla layihəsini dəstəkləmişik. Görülən yüksək səviyyəli hazırlıqlara baxmayaraq ölkəmizə səfər edəcək əcnəbilərdə nəqliyyatda, yaxud hansısa xidmət sahəsində rastlaşa biləcəkləri uyğunsuz hərəkətlərin və problemlərin Azərbaycan haqqında mənfi rəy formalaşdırmasına imkan verməməliyik. QHT-lər narahatlıq doğuran ictimai davranış qaydaları ilə bağlı maarifləndirmə işini gücləndirməli və mövcud problemlərlə bağlı real təkliflərlə çıxış etməlidirlər".

Şura sədri QHT-lərin irəli sürəcəkləri təkliflərdə yeniliklərə üstünlük verməsinin vacibliyini qeyd edib və ölkə ictimaiyyətini I Avropa Oyunlarından Azərbaycan xalqının zəngin mədəniyyəti və qədim tarixinin dünyaya nümayiş etdirilməsi baxımından səmərəli istifadə etməyə çağırıb.

Tədbirdə çıxış edən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr bölməsinin rəisi Vaqif Əsədov I Avropa Oyunları ərəfəsində DYP ilə yanaşı QHT-də ictimai davranış və yol hərəkəti qaydaları ilə bağlı təbliğat və maarifləndirmə prosesində yaxından iştirak



etdiyini deyib. Şuranın maliyyə yardımı ilə QHT-lərin bu istiqamətdə həyata keçirdiyi layihələrin ümumi işin səmərəliliyini xeyli artırdığını və yol hərəkət qaydalarına riayət olunması ilə bağlı son göstəricilərin buna misal olduğunu qeyd edib.

Toplantıda QHT rəhbərləri Rauf Zeyni, Ceyhun Musaoğlu, Sahib Məmmədov, Elməddin Muradlı, Elşad Eyvazlı, Çingiz Bayramov, Vüsalə Hüseynli, İradə Yaqubova, Niyaməddin Orduxanlı, Umud Mirzəyev, Ərşad Hüseynov, Dilarə Vəliyeva, Bəxtimşah Tağıyeva, Rəfael Becanov, Səbuhi Abbasov, Mətanət Cəfərova, Zəminə Səfərova, Venera Əsgərova radio və televiziyalarda sürücüləri siqnal verməkdən çəkindirən audio və videoçarxların yayımlanması, ictimai davranış, mədəniyyət qaydaları və ekologiyaya dair layihələr icra edən QHT-lərin birgə monitorinqlərinin təşkili, əcnəbilərin çox olacağı yerlərdə işğal altında olan torpaqlarımızın fərqləndirildiyi Azərbaycan xəritələrinin asılması, turistlərin gedə biləcəyi yerlərdə gigiyenik qaydalara riayət olunması, televiziyaların efir siyasətinin daha peşəkarlıqla tənzimlənməsi, metro və avtobuslarda maarifləndirici xarakterli materialların yerləşdirilməsi, avtomobillərin park məsələsinin həllinə diqqətin artırılması və digər təkliflərlə çıxış ediblər.

Şura sədri Azay Quliyev I Avropa Oyunları ilə bağlı ölkəmizin media qurumlarının da üzərinə mühüm vəzifə düşdüyünü xatırladaraq, yayılan hər bir informasiyanın milli təhlükəsizlik kontekstindən və obyektivlik prizmasından dəyərləndirilməsinin vacibliyini vurğulayıb. Şuranın üzərinə düşən bütün işləri gördüyünü və QHT-lərin zəruri sayılan təkliflərlə bağlı layihələrinə dəyişikliklər üçün Şura Katibliyinə müraciət edə biləcəklərini deyib. Toplantıda müzakirələrdə irəli sürülən təkliflərin ümumiləşdirilərək mövcud problemlərlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciətin edilməsi və İctimai Televiziyada müvafiq verilişlərin hazırlanması ilə bağlı razılıq əldə olunub.

# "Mən bilmirəm, bu xəbərə görə kimsə ağlayırdımı?"

## ANS rəhbərliyi "Ən məyusedici xəbər" yazısı ilə bağlı mövqeyini açıqladı; **Mais Məmmədov:** "Dünyadır, zamandır, hər yerdə belə olur..."



**Dövlət başçısı İlham Əliyevin qızı Leyla Əliyevanın Emin Ağalarovla boşanma qərarlarını elan etməsi ölkədə ciddi reaksiya doğurdu. Amma sosial şəbəkədə və ictimai sektorda daha çox müzakirə olunan anspress.com saytında bu boşanma ilə bağlı yazılan "analitik" yazı idi. "Ən Məyus Edici Xəbər..." başlıqlı yazı Nazim Mustafayev imzası ilə dərc edilib.**

Yazının yazılma hekayəsi müəllif tərəfindən belə təsvir olunub: "Bizim redaksiyamıza bu xəbər birincilərdən gəldi - yalnız heç kim inanmadı! İnanmaq istəmədi! Qızlar dərhal ağlamağa, kişilər isə əlavə mənbələr axtarışına düşdü. Hamı Allaha yalvarırdı ki, bu xəbər həyatda öz əksini tapmasın və bu ya bir zarafat və ya təxribat olsun. ANS PRESS redaksiyasının kandarında bir sual hamını narahat edirdi - Axı niyə? Buna cavab tapmağı bəndənizə tapşırdılar və mən əlimdən gələni etdim".

Yazı boyunca müəllif tərəfindən jurnalistikanın bir çox prinsipləri kobudcasına pozulub. Özünü az qala "qız tərəfi", hadisələrin birbaşa şahidi kimi təqdim edən N.Mustafayevin aşağıdakı cümlələrinə diqqət edək. "Azərbaycanlılar Heydər Əliyevin nəvəsi, gözəl, incə və xanım-xatın Leylanın, "bizim əziz balamızın" varlı bir tacir oğlu, həm də müğənni ilə evlənmək fikri ilə barışmırdılar", "sözsüz ki, artist həyatı birmənalı deyil və Azərbaycan ənənələri və tərbiyəsi ilə böyüyən qız uşağına bu yaşam tərzi yumşaq desək, ənənəvi deyil. Bəlkə də digər qadın belə bir varlı və tanınmış müğənni əri ilə münasibətləri itirməmək üçün nələrə isə göz yumardı, nəyi isə qulaq ardına vurardı, özünü bilməməzliyə vurardı, amma qısqanc və xanım Leyla Əliyeva yox",, "Əli və Mikayıl çox balaca və zəif idilər və onlara Ana lazım idi, yedizdirən və qoruyan Ana. Leyla nə gücünü, nə vaxtını balalarına əsirgəmir, bütün çətinliklərə dözür. Amma ona da Ər lazım idi, dəstək verən və anlayan Ər", İndi məsələ rəsmiləşdi və növbədə ailə mülkiyyətinin bölünməsi və ən əsas uşaqların taleyi durur. İndi uşaqlar anası ilə Bakıdadır və məlumatlara görə, elə Bakıda da böyüyəcəklər - Leyla kimi, Emin kimi. Azərbaycan torpağı onları igid və vətənpərvər böyüdəcək in şa Allah!"....

**Sözügedən müəllifin kimliyini dəqiqləşdirmək və bu yazının hansı zərurətdən, necə yazıldığını öyrənmək üçün ANS rəhbərliyi ilə əlaqə saxladıq. ANS Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri Mais Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, cütlüyün boşanma xəbərini digər xəbərlər kimi saytda yerləşdiriblər:** "Hər informasiya görə rəhbərlikdən icazə alınmır ki, olar, ya olmaz. Bu informasiya hər yerdə var idi və biz onu saytda yerləşdirdik".

**Müsahibimizə boşanma xəbərini yox, "Ən məyus edici xəbər" başlıqlı müəllif yazısı ilə bağlı sual verdiyimizi xatırlatdığımızda isə dedi ki, ümumiyyətlə, o yazını oxumayıb:** "İldə bilirsiz Azərbaycanda nə qədər boşanma var, məhkəməyə ya kişi, ya da qadın müraciət edir. Bu, problem deyil ki. Allah ikisinə də cansağlığı versin. Qoy uşaqlara baxsınlar. Özləri bilərlər, bu, onlara aid məsələdir, mənə aid deyil".

**M.Məmmədov bu yazının jurnalistika normalarına uyğun olduğunu bildirdi. Onun sözlərinə görə, yalan söyləməyiblər, yalan yaymayıblar. "Nə olubsa, nə baş veribsə, onu yazmışıq" deyən M.Məmmədovdan yazıda göstərildiyi kimi, xəbərə görə, ANS-in qızlarının ağlaması, kişilərinin isə xəbərin mənbəyini dəqiqləşdirməsi "detalını" soruşduq:** "Ağlama? Mən bilmirəm ki, kimsə ağlayırdımı? Amma heç kim də sevinmirdi. Olan şeydi bu, nə böyük problemdi, mənim başım çıxmır. Mən bu işə qarışmaq istəmirəm. Amma adamlar bir-birini sevmirlərsə, boşanacaqlar da. Dünyadır, zamandır, hər yerdə belə olur. Yazıyla bağlı narazılığım yoxdur".

❑ **Sevinc TELMANQIZI**



# Avropa Oyunları ilə bağlı FHN-də müşavirə keçirildi

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidməti Nərimanov rayon Dövlət Yanğından Mühafizə Hissəsində Birinci Avropa Oyunları ilə əlaqədar nazirlik tərəfindən yaradılmış Əməliyyat Qərargahının iyunun 1-də müşavirə keçirilib.**

FHN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müşavirədə fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, "Bakı-2015" Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq və Təhlükəsizlik Departamentinin direktoru Piter Aşvin iştirak ediblər.

Müşavirədə Əməliyyat Qərargahının rəhbəri, fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyevin Birinci Avropa Oyunları ilə bağlı aidiyyəti üzrə təhlükəsizliyin təmin edilməsi sahəsində nazirliyin gördüyü işlər barədə geniş məruzəsi dinlənilib.

Məruzənin təqdimatı zamanı Avropa Oyunlarının keçiriləcəyi idman obyektləri, habelə Atletlər Kəndi ilə birbaşa telekörpü təşkil olunub, hər bir obyekt üzrə yaradılmış qərargah rəhbərləri görülmüş işlərlə bağlı məruzələr ediblər.

Sonra nazirliyin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin rəisi polkovnik Adil Abdullayev FHN- də yaradılmış Əməliyyat Qərargahının fəaliyyətinin müasir səviyyədə qurulması, nazirliyin qüvvə və vasitələrinin effektli idarə edilməsi məqsədilə informasiya-kommunikasiya texnologiyalarının tətbiq edilmiş və ən son yeniliklər barədə məruzə edib.

Nazir K. Heydərov Birinci Avropa Oyunları ilə əlaqədar təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi üçün müvafiq tapşırıqlarını verib.

Sonda çıxış edən "Bakı-2015" Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq Birinci Avropa Oyunları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi sahəsində FHN tərəfindən görülmüş işləri yüksək qiymətləndirib.

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri başlayıb. Səfərin ilk günündə ATƏT sədrini və nümayəndə heyətini Azərbaycan prezidenti İlham Əliyev qəbul edib.**



# ATƏT sədrinin Bakı səfərində Qarabağ və girovlar açıqlaması

## Azərbaycan prezidenti və XİN başçısı ilə görüşən İvitsa Daçiçin səfəri nə vəd edir; düşmənin təxribatları dayanacaqmı?

İ.Daçiçlə son görüşünü məmnunluqla xatırlayan dövlət başçısı onun ATƏT-in sədri kimi ölkəmizə səfərinin önəmini qeyd edib. Daçiç isə Azərbaycanda keçiriləcək birinci Avropa Oyunlarının açılış mərasimində ölkəsinin prezidentinin iştirak edəcəyini vurğulayıb. Serbiyanın baş naziri Aleksandr Vuçiçin bu yaxınlarda Azərbaycana etdiyi səfərə toxunan İ. Daçiç onun bu səfərdən çox məmnun qaldığını deyib. Görüşdə Azərbaycan-ATƏT əməkdaşlığının perspektivləri, Azərbaycanla Serbiya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsi, Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar prosesi, təmas xəttində baş verən hadisələr, problemin həllinin uzadılması, münaqişənin həllinə yanaşmada ikili standartların mövcud olması və digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sözsüz ki, ATƏT sədrinin Bakı səfərinin daha çox Dağlıq Qarabağ probleminin həllinə hansı təsirlər göstərəcəyi baxımından ən çox önəm kəsb edir. Hələ səfər hazırlıqları başlanan ərəfədə bu səfərin önəmli məqamları qabardılırdı. Xüsusilə də Bakının Avropa Oyunlarına ev sahibliyi ərəfəsində erməni işğalçılarının təxribat-diversiya hərəkətləri törədə biləcəyi barədə ehtimallar artdığı üçün ATƏT sədrinin də beynəlxalq miqyaslı oyunlardan bəhs etməsi Ermənistana mesaj hesab edilir. Ancaq daha çox gözlənilən odur ki, missiya rəhbəri işğalçı qarşısında, nəhayət, Azərbaycan torpaqlarını tərk etmək tələbini qoysun.

Yeri gəlmişkən, təkcə may ayında Ermənistan silahlı bölmələri cəbhə xəttində atəşkəs rejimini 728 dəfə pozub. Müdafiə Nazirliyinin məlumatına görə, düşmən təxribatlarının qarşısı alınıb, erməni tərəfi cavab atəşi ilə susdurulub. Aprel ayında erməni silahlı bölmələri atəşkəs rejimini 575 dəfə pozmuşdu. Göründüyü kimi, atəş xəttində gərginlik getdikcə artır və bu da ATƏT-i narahat etməyə bilməz.

**Hər halda, Azərbaycan xarici siyasət idarəsinin rəhbəri ATƏT sədri ilə görüşdən sonra daha konkret mövqeyi ilə diqqət çəkib. “Bura Avropanın sabitliyi üçün əhəmiyyətli regiondur”. APA-nın məlumatına görə, bunu Daçiç xarici işlər naziri Elmar Məmmədyarovla görüşdən sonra keçirilən mətbuat konfransında deyib. O, ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin mahiyyətindən xəbərdar olduğunu deyib:** “Münaqişənin yeganə həlli sülhdən keçir. Bütün tərəflərin siyasi iradəsinə ehtiyac var. Bununla bağlı xoş niyyətimi bildirmişəm. Xüsusi nümayəndə və Minsk Qrupu vasitəsilə uzunmüddətli həllə nail olacağımıza inanıram. Siyasi iradə olacağı təqdirdə, həll mümkündür. Minsk Qrupu ölkələrinin də xüsusi öhdəliyinə və buna sadiqliyinə ehtiyac var. Onlar atəşkəs haqqında sazişdən irəli gələn tələblərin tam icrasına nail olmalıdırlar. Erməni həmkarımla görüşdə bir sıra təşəbbüslər irəli sürəcəyəm. Hesab edirəm ki, Helsinki Yekun Aktının müddəalarına əməl etməli, ikili standartların aradan qaldırılmasına təkan verməliyik”.

**E.Məmmədyarov deyib ki, cənab Daçiçin səfərindən sonra münaqişə ilə bağlı hansısa irəliləyiş olacağını gözləyir. Nazir bildirib ki, artıq məsələni yerindən tərpətmək vaxtı yetişib:** “Bütün tərəflər münaqişənin həllində maraqlıdır. Həmsədr ölkələr də çalışır ki, məsələ yerindən tərpənsin. Ola bilsin ki, yaxın vaxtarda həll üçün görüş olmasa da, hansısa yol seçilməsi üçün görüş baş tutsun. Təbii ki, bu, Minsk Qrupu formatı çərçivəsində olacaq”.

**XİN başçısı Kəlbəcər sakini olan iki girovumuzun məsələsini də qaldırıb.** “ATƏT-in fəaliyyətdə olan sədrindən xahiş etdim ki, İrəvanda olarkən azərbaycanlı girovların məsələsinə toxunsun. Onlar tezliklə öz vətənlərinə qayıtmalıdır”. Nazir xatırladıb ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri birbaşa Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğuldular: “Azərbaycan münaqişənin həlli ilə bağlı son sənədlər üzərində tam şəkildə işləməyə hazırdır. Gözləyirik ki, İrəvanda keçirilən görüşlərdə bu məsələ yerindən tərpənəcək”.

***

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Aydın Mirzəzadə “Yeni Müsavat”a dedi ki, hər halda, Azərbaycan ATƏT sədrinin səfərinin pozitiv dəyişikliklərə gətirib çıxartmasını istəyir:** “Nüfuzlu regional beynəlxalq təşkilat rəhbərinin bu məsələləri gündəmdə saxlamasını Azərbaycan çox arzulayır. Bu gün Azərbaycan üçün vacib olan ərazi bütövlüyü, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması, Azərbaycan vətəndaşının işğal altında olan əraziyə getdiyinə görə onun üzərində saxta məhkəmə qurulmasıdır. Bu məsələlər diqqətə çatdırıldı və biz dünya ictimaiyyətinin bu məsələlərdə qətiyyətli olmasını istəyirik. Əgər ATƏT bunları etməyəcəksə, onda qurumun rəhbər orqanları öz nizamnaməsini artıq diqqətdən kənarda qoymuş olurlar. Ümumən ATƏT sədrinin bu səfər zamanı Azərbaycanın mövqeyini daha dərindən başa düşəcəyini güman edirəm”.

## Ekspert və keçmiş döyüşçülərdən Avropa Oyunları zamanı Qarabağ həqiqətlərinin yayılması ilə bağlı mühüm təkliflər...

Avropa Oyunlarının keçirildiyi dönəmdə Azərbaycanın Qarabağ həqiqətlərini yayması üçün bir sıra ciddi işlər görə biləcəyi də gözlənitlər sırasındadır. Xüsusilə də paytaxt Bakıda Qarabağın işğalını göstərən xəritələrin, afişaların asılması, Şuşanın işğalı zamanı güllələnmiş heykəllərin mərkəzi ünvanlardan birində yerləşdirilməsi də təkliflər sırasındadır.

**Əslən işğal altındakı Qubadlı rayonundan olan Qarabağ müharibəsi veteranı Rəsul Mirhəşimli dedi ki, Avropa Oyunları beynəlxalq idman tədbiridir. Amma bütün bu tipli tədbirlərdə Qarabağla əlaqədar çox mühüm işlər görmək mümkündür:** “Azərbaycan bu imkanlardan istifadə edib, Qarabağın işğalı və erməni təcavüzü ilə bağlı xüsusi təbliğat forması təqdim edə bilər. İdmançıların yerləşdiyi hotellərdə stendlər, otaqlarda Qarabağla əlaqədar broşur-albomlar vasitəsilə təbliğat aparmaq mümkündür”. Keçmiş döyüşçü dedi ki, Azərbaycan telekanallarında xarici dildə hazırlanan verilişlərin hesabına da bu təbliğatı aparmaq mümkündür: “İdmançılara Qarabağdakı həqiqətləri əks etdirən DVD-lər də təqdim etmək olar”.

**A.Mirzəzadə isə qeyd etdi ki, idman siyasətdən kənardadır:** “İdman ilk növbədə dövlətləri, xalqları yaxınlaşdırmaq, sağlam cəmiyyət yetişdirmək üçün çox gözəl bir imkandır. Əlbəttə ki, bura səfər edənlər Azərbaycanı tanıyacaqlar, Azərbaycan reallığı ilə tanış olacaqlar, ölkəmiz barəsində fikirləri daha da möhkəmlənəcək. Hətta işğalçı Ermənistanın nümayəndələri belə Bakıya gəldikdən sonra torpaqlarının bir hissəsi işğal olunan ölkənin inkişafı ilə Ermənistanın durumunu istər-istəməz müqayisə edə biləcəklər. Bu müqayisə heç də Ermənistanın xeyrinə deyil. Azərbaycan Avropa oyunlarından təbliğat məqsədi üçün istifadə etmək fikrindən çox uzaqdır. Azərbaycan bu gün çox nüfuzlu beynəlxalq tədbirləri keçirmək iqtidarında olduğunu və əldə etdiyi uğurları öz gücü ilə reallaşdırdığını bir daha dünyaya göstərəcək”.

**Politoloq Arzu Nağıyev deyir ki, Birinci Avropa Oyunlarına ev sahibliyi etmək bütün müsbət halları ilə bərabər eyni zamanda Azərbaycan üçün böyük bir təbliğat imkanıdır:** “İqtisadi, siyasi, hərbi və digər məsələlərlə bir yerdə eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin yaranma tarixi, erməni təcavüzkarlığı, qaçqın və köçkün problemlərinin qabardılması üçün bir imkandır. Bunun üçün dünya dövlətlərinin nümayəndələrinin iştirakını nəzərə alaraq jurnalistlərin yaşadığı və işlədikləri yerlərdə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı videoçarxların göstərilməsi, bukletlərin paylanması zəruri məsələlərdəndir. Bundan başqa, asudə vaxt kəsiyində kinoteatrlarda, istirahət mərkəzlərində Qarabağ problemi ilə bağlı qısametrajlı filmlərin göstərilməsidir. İdman köynəkləri və suvenirlərdə işğal olunan ərazilərin fərqli bir rənglə göstərilməsi, yəni diqqətçəkən bir tərzdə veriməsi məqsədəuyğundur”. **A.Nağıyev hesab edir ki, bundan başqa, ekskursiya marşrutuna erməni kilsəsinin salınması və doğan suallara cavab verərək problemin çözülməsinə çalışmaq lazımdır:** “Yeni beynəlxalq səviyyədə bütün ənənəvi üsullardan istifadə etməklə problemi müvafiq tərzdə çatdırmaq hər bir azərbaycanlının borcu olmalıdır. Təbii ki, Ermənistan nümayəndə heyəti də Bakını görəcək, inkişafı hiss edəcəkdir, bu da vacib bir şərtdir. Qaçqın və köçkünlər üçün yaradılan şəraitin təbliği də lazımdır, bu, artıq həmin rayonların aktiv gənclərinin və ümumiyyətlə hər bir sakinin üzərinə düşən məsuliyyətdir. Yeni gələn qonağı qorxutmamaq, işindən ayırmamaq şərtilə bütün vasitələrdən istifadə etmək lazımdır. Məlumdur ki, bu idman bayramına gələn hər bir qonaq hər şeydən əvvəl dincəlmək, zövq almaq üçün gəlir. Məhz təmasdan çox çey asılıdır. Bu imkan isə demək olar ki, idmançılardan, təşkilatlardan , könüllülərdən tutmuş bütün vətəndaşlarımızda olacaq. Gəlin bu məsələdə bir yerdə olaq, Azərbaycan naminə, gələcəyimiz naminə istifadə edək”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015

# Qəbul imtahanlarının biabırçı nəticələri...

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) əvvəlki illərin məzunu olan abituriyentlərin imtahan nəticələrinə dair statistik məlumatları açıqlayıb. TQDK-nın mətbuat xidmətindən verilən xəbərə görə, mayın 17-də (II və III ixtisas qrupları üzrə) və 24-də (I və IV ixtisas qrupları üzrə) ali təhsil müəssisələrinə əvvəlki illərin məzunları üçün qəbul imtahanı keçirib. Bu imtahanlarda ümumilikdə 29004 abituriyent iştirak edib.**

İmtahanda abituriyentlərə təqdim olunmuş test tapşırıqları ümumtəhsil məktəblərində istifadə olunan tədris proqramlarına və dərsliklərə tamamilə uyğun olub. İmtahandan əvvəl qapalı rejimdə, imtahan başa çatdıqdan sonra isə müstəqil ekspertiza bunu bir daha təsdiq etmiş, suallarda hər hansı elmi, texniki xəta olmayıb. Mayın 17-də keçirilən imtahanın nəticələri mayın 19-da, mayın 24-də keçirilən imtahanın nəticələri mayın 26-da TQDK-nın internet saytı, telefon xidmətləri vasitəsilə elan olunub.

Qeyd edək ki, ilkin müsabiqə şərtlərinə əsasən I, II, III və IV ixtisas qruplarında (ödənişli əsaslarla olan ixtisaslar üzrə) müsabiqəyə ümumi balı 200-dən az olmayan abituriyentlər buraxılırlar. I ixtisas qrupu üzrə imtahanda 11874 abituriyent iştirak edib, onlardan cəmi 963 nəfəri (8,11 faizi) 200 və daha yüksək bal toplayıblar. Beləliklə, 10911 nəfər 0-200 bal intervalında nəticə əldə edib ki, bu da iştirakçıların 91,89 faizi deməkdir. 600-dən yuxarı bal toplayanların sayı isə 4 nəfər olub və maksimal nəticə 647 baldır.

II ixtisas qrupu üzrə imtahanda 7224 nəfər iştirak edib. Bu qrupda imtahanda iştirak edənlərin 1117 nəfəri (15,46 faizi) 200 və daha yüksək bal toplayıb, 6107 nəfər 0-200 bal intervalında nəticə əldə edib ki, bu da iştirakçıların 84,54 faizi deməkdir. 2 nəfər 600-dən yuxarı bal toplayıb, maksimal nəticə 614 bal olub.

III ixtisas qrupu üzrə imtahanda 7812 nəfər iştirak edib. İştirakçıların 1934 nəfəri (24.76 faizi) 200 və daha yüksək bal toplayıblar. Beləliklə, 5878 nəfər 0-200 bal intervalında nəticə əldə edib ki, bu da iştirakçıların 75,24 faizi deməkdir. Bu qrupda 600-dən yuxarı bal toplayanların sayı isə 10 nəfər olub və maksimal nəticə 680 baldır.

IV ixtisas qrupu üzrə imtahanda 2094 nəfər iştirak edib, onların cəmi 235 nəfəri (11,22 faizi) 200 və daha yüksək bal toplayıblar. Beləliklə, 1859 nəfər 0-200 bal intervalında nəticə əldə edib ki, bu da iştirakçıların 88,78 faizi deməkdir. 600-dən yuxarı bal toplayanların sayı isə 10 nəfər olub və maksimal nəticə 670 baldır.

**Ekspertlər isə abituriyentlərin aşağı nəticə göstərməsini müxtəlif səbəblərlə bağlayıblar. Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü bildirir ki, bu nəticələr qənaətbəxş deyil:** "Təhsildə aparılan islahatlarla bağlı irəliləyiş yoxdur. Hamısı onu göstərir ki, bizim orta məktəblərdə, təhsilin strukturunda, idarə edilməsində, məzmununda, proqramlarında köklü islahata ehtiyacı var. Bildirilir ki, islahatlar aparılır. Ancaq pərakəndə bir halda həyata keçirilir. Tutaq ki, bu gün biz proqramla dərsliklər üzrə bu kurrikulum islahatını həyata keçiririk. Ancaq burada bir idarəetmə də var. Təhsilin müddəti və sair məsələlər var, müəllim hazırlığı var. Kompleks şəkildə bu məsələlər həllini tapmalıdır. Bunlar bir-biri ilə zəncirvari bağlanmış məsələlərdir. Bu, təlimin keyfiyyətinə də təsir edir. Bu islahatlar ayrı-ayrılıqda yox, kompleks şəkildə aparılsa, müəyyən bir nəticəyə gəlmək olar".



**Məlahət Mürşüdlü:** "Təhsildə aparılan islahatlarla bağlı irəliləyiş yoxdur"



**Etibar Əliyev:** "Ölkədə funksional savadsızlıq tüğyan edir"

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyevin sözlərinə görə, bu nəticələr ölkədə funksional savadsızlığın tüğyan etməsinin nəticəsidir:** "Bu rəqəmlər həm də onu göstərir ki, həmin abituriyentlər bilikləri aşağı olduğu üçün eyni sabit göstəricini saxlaya biliblər. Yəni ötən il ali məktəbə daxil olmayanlar bu il də həmin nəticəni göstəriblər. O deməkdir ki, abituriyentlərin məktəb bilikləri onların yüksək bal toplamasına birinci etapda şərait yaratmayıb. İkinci mərhələdə də məktəb biliklərinin köməyi onlara dəyməyib. Çox ehtimal ki, bu böyük kəsim o zamanlar orta ixtisas təhsili məktəblərinə və yaxud da texniki peşə məktəblərinə üz tuta bilərdilər. Amma maraqlıdır ki, yenə də ali təhsil almaq istəyirlər və xüsusilə birinci qrup balına görə, keçid balı aşağı olduğu üçün onlar tələbə olmaq istəyirlər. Tələbə adını qazandıqdan sonra istənilən şəxs ali məktəbi bitirə bilir. Bu, funksional savadsızlığın geniş şəkildə tüğyan etməsidir".

**Ekspertin sözlərinə görə, bir müddət sonra bu il orta məktəbi bitirən abituriyentlərin qəbul imtahanı da o qədər fərqli olmayacaq:** "Bu nəticələr də ötən ildəkindən fərqli olmayacaq. Yeni məktəb hələlik kifayət qədər dəyişməyib. Məktəbdə təhsilin keyfiyyəti dəyişməyib, yaxşılaşmayıb. Abituriyentlərin nəticələri göstərir ki, sırf məktəb təhsili onların yüksək nəticə göstərmələrinə yardımçı olmur. Burada təhsilin keyfiyyətindən söhbət gedir, məktəb mühitindən söhbət gedir. Burada müəllimlərin dəyişməsindən, təkmilləşməsindən söhbət gedir. Valideyn-müəllim münasibətlərindən söhbət gedir. Artıq bütün valideynlər bilirlər ki, məktəb təhsili ilə onların uşaqları yüksək nəticə göstərə bilməyəcəklər. Ona görə də üz tuturlar repetitorlara. Yəqin ki, artıq ailələrin maddi durumunda da kəsirlər var ki, övladlarını yaxşı hazırlaşdıra bilmirlər. Ötənilki abituriyentlərin nəticələri buna sübutdur".

**E.Əliyev qeyd edib ki, ancaq bütün hallarda kurrikulum islahatı aparılmalıdır:** "Bu, kağız üzərində olmamalıdır. Təhsilin keyfiyyəti aşağı olan məktəblərin rəhbərliyi dəyişdirilməlidir. Mütəmadi olaraq keyfiyyətlə bağlı monitorinqlər aparılmalıdır. Onların geniş təhlili lazımdır. Hələlik bu məsələlər olmadığına görə məktəb müstəqil şəkildə ali məktəb üçün şagirdləri hazırlaya bilmir".

❑ **Röya RƏFİYEVA**

# İspan qripi 33 milyon insanı öldürə bilər

## Adil Qeybulla: "Bu, insan orqanizmində daha ciddi fəsadlara yol açan bir qripdir"

**"33 milyon insan İspan qripindən öləcək. "Microsoft" korporasiyasının Direktorlar Şurasının sədri Bill Geytsin açıqladığı bu proqnoz insanları dəhşətə gətirib. Xarici KİV-də yer alan məlumatlara görə, o, "Vox" nəşrinə müsahibədə mümkün infeksiya faciəsinin modelini hazırlayacaq tədqiqatçılar qrupu formalaşdırdığını deyib.**

Tədqiqatçılar qərara gəliblər ki, ispan qripi kimi xəstəliklər yayılsa, 250 günə dünyada 33 milyon insan məhv olacaq.

B.Geyts bildirib ki, xəstəliklərin yayılması baxımından biz bəşəriyyət tarixində ən təhlükəli mühit yaratmışıq.

20 milyon nəfərin yaxın 20 ildə nə ilə məhv edilməsi ilə bağlı sualı cavablandıran korporasiya rəhbəri bir neçə variantı nəzərdən keçirərək vurğulayıb ki, burada fəlakətli filmlərin ssenarisi ağlabatan deyil. Zəlzələ, vulkan püskürməsi və ya asteroidin düşməsi də bəşəriyyəti məhv edə bilməz. B.Geytsin fikrincə, nüvə müharibəsi ehtimalı da azdır.

Dünyanın ən varlı adamı həmçinin iki dünya müharibəsindəki insan itkilərini ispan qripindən ölənlərin sayı ilə müqayisə edərək, ispan qripinin XX əsrdə daha çox insanın həyatına son qoyduğunu sübut edib.

**B.Geytsin qənaətinə görə, hazırkı şəraitdə istənilən infeksion xəstəliklərin pandemiyasının nəticələri 1918-1919-cu illər İspan qripinin nəticələrindən daha faciəli olacaq:** "Bu gün xəstəlik cəmi 60 günə dünya şəhərlərinə yayılacaq. İspan qripi ilə bağlı vəziyyət belə olmayıb. Bu, sərbəst hərəkətlə əlaqədardır: bu gün dövlət sərhədlərini yüz il əvvələ nisbətən 50 dəfə çox insan keçir. Həmçinin bəzi xəstəliklər artıq onlar çoxlu insan həyatına son qoyandan sonra məlum olur. Ebola virusu ilə bağlı vəziyyətdə də belə olub. Ekspertlər əmindir ki, bu xəstəlik ABŞ-da yayılsaydı, ona dərhal son qoyulardı. Lakin o, Afrikada olub. Qvineya epidemiyanı qəbul etmək istəmirdi, çünki bu, investisiyalar və turizm sahəsi üçün "ölüm" hökmü demək idi".

Qeyd edək ki, indiyə qədər elmə məlum olan ən böyük və dağıdıcı qrip virusu 1918-ci ildə yayılan və İspan qripi adı ilə tanınan H1N1 virusudur. Bu virus 1 il ərzində davam edən epidemiyaya səbəb olub və 20 milyondan 100 milyona qədər insanın ölümünə səbəb olub. Bu, tibb tarixində Qara ölümdən sonra qeydə alınan ən böyük epidemiya sayılır. İspan qripi, ona yoluxanların 2%-dən 20%-nə qədərinin ölümü ilə nəticələnirdi. Anomal şəkildə güclü təsirə malik olan bu virus hətta Arktikaya və Sakit Okeandakı adalara qədər geniş ərazilərə yayılmışdı.



Adil Qeybulla

Qriplə mübarizədə ən böyük uğurlardan biri də 1944-cü ildə ABŞ-da qripə qarşı peyvəndin kəşf olunması idi. Hazırda qripə qarşı daha güclü vasitələrin hazırlanması üçün tədqiqatlar aparılır. Bu infeksiyanın qısa zamanda milyonlarla insanın ölümünə səbəb olacağı ilə bağlı iddialara haqq qazandıranlar da var.

Bəs görəsən, Bill Geytsin iddiaları ilə bağlı azərbaycanlı tibb ekspertləri nə düşünür? Virusun Azərbaycana gəlmə ehtimalı varmı? İspan qripinin fəsadları nələrdir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran tibb elmləri doktoru Adil Qeybulla bildirdi ki, ispan qripi həqiqətən milyonlarla insanın ölümünə səbəb ola biləcək qədər təhlükəli bir virusdur:** "İndiyə qədər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 4 karantin infeksiyası müəyyənləşdirilib. Bunlar təbii çiçək, taun, vəba və sarı qızdırmadır. Artıq aparılan vaksinasiya işlərinin nəticəsi olaraq təbii çiçək infeksiyası karantin infeksiyalar siyahısından çıxarılıb, onun yerinə qrip əlavə olunub. Bu səbəbdən qripə adi bir xəstəlik kimi baxmaq düzgün deyil, o, dünyadakı 4 karantin infeksiyadan biridir. Qripin əlamətləri burunun axması, temperaturun yüksəlməsi, tərləmə və sairdir. Bu əlamətlər el arasında "qrip" adlandırılır. Hər il qripin bir növü peyda olur. Ümumdünya Səhiyyə Təşkilatı bu haqda rəsmi hesabat yayır ki, belə bir qrip epidemiyası yayıla bilər. Qrip infeksiyası qısa müddət ərzində bir neçə qitəni belə əhatə edə bilər. İspan qripi daha çox ağırlaşmaya səbəb olan və insan orqanizmində daha ciddi fəsadlara yol açan bir qripdir. Bu infeksiya toxumalara daha tez sirayət edir, hüceyrələrin baryer funksiyasını dağıdır, orqanların funksiyasını pozur və ayrı-ayrı orqanların sıradan çıxmasına gətirib çıxarır. Əgər bu qrip epidemiyası yayılarsa və təcili tədbirlər görülməzsə, bu, dünya əhalisini təhlükə qarşısında qoyar. Məlumdur ki, bütün ölkələrdə insanlar keyfiyyətli səhiyyə xidmətləri ilə təmin olunmayıb. Ona görə də İspan virusunun yayılması yüksək sayda insan tələfatı ilə nəticələnə bilər. Hazırda narahatçılıq da bundan ibarətdir. Bilirsiniz ki, yer kürəsi əhalisinin böyük əksəriyyəti aclıq keçirir, immun sistemi zəifdir. Bu səbəbdən İspan qripinin böyük sayda insan tələbatına səbəb olacağı ehtimalı düzgündür. Bu səbəbdən mümkün qədər yoluxma hallarının sayını azaltmaq, yoluxmuş xəstələri karantinə almaq, müvafiq önləyici tədbirlər görmək, yoluxmuş insanlarda virusun yarada biləcəyi fəsadları minimum endirmək lazımdır".

**A.Qeybulla bildirdi ki, hər bir ölkə bu infeksiyanın yayılmasının qarşısını almaq üçün müvafiq tədbirlər görməlidir:** "Çalışmaq lazımdır ki, transsərhəd zonalarında karantin qurulsun, nəzarət gücləndirilsin və virusa yoluxmuş insanlar bir ölkədən digərinə keçməsin. Əhalinin kütləvi olduğu yerlərdə, ictimai nəqliyyatda, yeraltı keçidlərdə xüsusi tədbirlər görülsün. Səhiyyə Nazirliyi bununla bağlı müvafiq tədbirlər görməlidir. İspan qripinin simptomları da digər qrip infeksiyaları ilə eynidir. Yuxarı tənəffüs yollarında parazitlik edən 15-dən yuxarı infeksiya var, bunların hər biri soyuqdəymə və immun sisteminin zəifləməsi nəticəsində fəallaşır və ortaya çıxan əlamətləri biz qrip adlandırırıq. Ancaq elmi dildə bu, kəskin respirator xəstəliklər sayılır".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 118 (6146) 2 iyun 2015

# Azərbaycanda ov mövsümü başladı

**Azərbaycan Respublikası ərazisində 2015-2016-cı illər üçün ov mövsümü 30 may 2015-ci il tarixindən etibarən açıq elan edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, respublika ərazisində 2015-2016-cı illərin ov mövsümündə vəhşi heyvanların və quşların ovlanması müddətləri və normaları aşağıdakı kimi müəyyən olunub.**



Vəhşi heyvanların və quşların sayının tənzimlənməsi məqsədilə onların ovlanmasına aşağıda göstərilən regionların müvafiq ov sahələrində və ovçuluq təsərrüfatlarında icazə verilir:

**Dağıstan turu** (təkə) 30 may-17 oktyabr 2015-ci il tarixlərində, 1 baş (3 nəfərdən az olmayan qrup ovçulara), Zaqatala, Şəki, Qax, Quba, İsmayıllı, Oğuz;

**Qaban** (çöl donuzu) 19 sentyabr-19 dekabr 2015-ci il tarixlərində, 1 baş (3 nəfərdən az olmayan qrup ovçulara), Lənkəran, Astara, Lerik, Qax, Cəlilabad, Zaqatala, İmişli, Quba, Xaçmaz, Neftçala, Yardımlı, Şəki, İsmayıllı;

**Dovşan 14 noyabr** 2015-ci il-09 yanvar 2016-cı il tarixlərində, 2 baş (adambaşına), Dəvəçi, Kürdəmir, Salyan, Neftçala, Cəlilabad, Biləsuvar, Yevlax, Lənkəran, Zaqatala, Ağstafa, Qazax, Zərdab, Masallı, Quba, Xaçmaz, İmişli, Sabirabad, Saatlı;

**Bataqlıq qunduzu** (nutriya) 10 oktyabr 2015-ci il-20 fevral 2016-cı il tarixlərində (nutriya təsərrüfatı olan təşkilatlara volyerlərdə saxlamaq üçün);

**Cüllüt** (ağquyruq, çökükburun, qırqıldayan cüllüt, kiçik kroşnep və çölhaçaquyruq cüllütü istisna olmaqla) 12 sentyabr-07 noyabr 2015-ci il tarixlərində, 6 ədəd (adambaşına), müvafiq ov sahələri və ovçuluq təsərrüfatları;

**Qaz** (ağ qaş və qırmızı döş qaz istisna olmaqla ) 10 oktyabr 2015-ci il -20 fevral 2016-cı il tarixlərində, 1 ədəd (adambaşına), su-bataqlıq ərazisi olan ovçuluq təsərrüfatları;

**Ördək** (ağgöz qara ördək, göydimdik və mərmər cürə istisna olmaqla) 10 oktyabr 2015-ci il - 20 fevral 2016-cı il tarixlərində, 4 ədəd (adambaşına), su-bataqlıq ərazisi olan ovçuluq təsərrüfatları;

**Qaşqaldaq** 10 oktyabr 2015-ci il-20 fevral 2016-cı il tarixlərində, 6 ədəd (adambaşına); su-bataqlıq ərazisi olan ovçuluq təsərrüfatları.

Birdəfəlik ov icazəsinin qiyməti aşağıdakı kimi müəyyən edilib:

**Dağıstan turu** (təkə) - 24 manat 75 qəpik;

**Qaban** (çöl donuzu) - 16 manat 50 qəpik;

**Dovşan** - 2 manat 20 qəpik;

**Cüllüt** - 31 qəpik;

**Ördək** - 99 qəpik;

**Qaşqaldaq** - 31 qəpik;

**Qaz** - 2 manat 53 qəpik.

Qeyd edək ki, ov üçün icazə Bakı Şəhər Ekologiya və Təbii Sərvətlər Departamenti və Ərazi Ekologiya və Təbii Sərvətlər şöbələrindən alınmalıdır. Ağdam, Xanlar, Goranboy, Daşkəsən, Gədəbəy və Tərtər rayonlarında, Xəzər dənizinin adalarında, yaşıl zonalarda, xüsusi mühafizə olunan ərazilərdə, şəhərlərin və kurort ərazilərinin ətrafındakı 1 kilometrə qədər sahələrdə ov qadağan edilib.

# Şıx çimərliyinə getməyin

**Azərbaycan Xəzəryanı dövlətlər arasında yeganə ölkədir ki, dənizin və onun akvatoriyasının çirklənmədən qorunması üzrə kompleks tədbirlər görür. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən azvision.az-a daxil olan xəbərdə bildirilir ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış 2007-ci il 20 iyun tarixli 2244 №-li "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" Sərəncama əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi Abşeron yarımadasının kanalizasiya şəbəkəsi olmayan Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı qəsəbələrinin sahil zolağında və "Amburan" çimərliyi ərazisində, eləcə də Novxanı və Corat bağlarının sahil boyu ərazilərində beynəlxalq standartlara cavab verən 17 ədəd modul tipli çirkab sutəmizləyici qurğu quraşdırıb. Nazirlik tərəfindən modul tipli çirkab sutəmizləyici qurğuların quraşdırıldığı ərazilərdə aparılan monitorinqin nəticələrinə görə 2007-ci illə müqayisədə mikrobioloji baxımdan çirklənmənin qarşısı alınıb.**

Artıq Abşeron yarımadasının şimal zonasındakı ərazilərdən dənizə axıdılan tullantı suları idarə olunur. Belə ki, təmizləyici qurğuların istismarı müddətində dənizdə mikrobioloji baxımdan çirklənmənin dərəcəsi tədricən azalmağa başlamış, son illər ərzində qeyd olunan sahələrdə bağırsaq çöplərinin və şərti patogen bakteriya olan «Escherichia coli»nin (E.coli) miqdarı minimum həddə çatıb. Aparılan tədqiqatların nəticələrinə görə qeyd olunan çimərlik ərazilərində çirklənmə dərəcəsi artıq norma daxilindədir. Lakin belə qurğuların quraşdırılmadığı məntəqələrdə ötən il olduğu kimi (Sumqayıt, Səbayel rayonunun Şıx və Qaradağ rayonunun Sahil qəsəbəsinin çimərlik ərazilərində) bu il də mikrobioloji baxımdan çirklənmə qeydə alınıb... Prezidentin sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli təmizləyici qurğular quraşdırılmış qəsəbələrin sahil zolağında aparılan son tədqiqatların nəticələri bunu deməyə əsas verir ki, qeyd olunan qəsəbələrin sahil zolağındakı çimərlik sahələri (Sumqayıt, Qaradağ rayonu Sahil qəsəbəsinin "Sahil" və Səbayel rayonunun "Şıx" çimərliklərindən başqa) yay mövsümü ilə əlaqədar çimərlik kimi istifadəyə yararlıdır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Elan

**Həsənov Rüfət Alim oğlunun adına olan 2700313122 nömrəli VÖİN-ə məxsus kassa mədaxil qəbzi itdiyi üçün etibarsız sayılır.**

## Başsağlığı

**Vaqif Qurbanov, Fikrət Xalıqov və Seyidəli Məmmədli**
**Əkbər Sarıyevin**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**


## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

---

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

---

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

---

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

---

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

---

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

---

**Dübəndidə Baglar massivində 10 sot torpaq sahəsi. Dəniz sahilindədir ,bütün sənədləri qaydasındadar.**

**Torpaq sahibi özü satır. 055-215-00-57**




# "Nar" Uşaqların beynəlxalq müdafiəsi gününə həsr olunmuş bayram tədbirinə dəstək oldu

## Rabitə operatorunun nümayəndələri valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaqların görüşünə gəldilər

**30 may 2015-ci il tarixdə "Qadın və uşaqların problemlərinin araşdırılması" İctimai Birliyinin təşkilatçılığı və "Nar" rabitə operatorunun dəstəyi ilə 1 iyun - Uşaqların beynəlxalq müdafiəsi günü ərəfəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaqlar üçün"Onlar bizim birimizdir" adlı bayram tədbiri keçirildi.**

nar
Gəlin birlikdə böyüyək

**Bakı, Ağdam, Füzuli, Şamaxı, Ağsu və Zaqataladan olan uşaqların qatıldıqları tədbirdə ümumilikdə 60 azyaşlı iştirak etdi. Tədbir çərçivəsində uşaqlar üçün İçərişəhərdə, Bayraq Meydanında gəzinti, Azərbaycan Xalça Muzeyində və Heydər Əliyev Mərkəzində ekskursiya təşkil olunub.**

**Dövlət qurumlarının və QHT nümayəndələrinin iştirak etdiyi tədbirdə uşaqlar üçün interaktiv oyunlar təşkil edilib, onlara bayram hədiyyələri verilib.**

**"Nar" hər zaman uşaqlara, gənc nəslə xüsusi diqqət və qayğı göstərməyə davam edir.**

# "Sədərək" və "Binə" ticarət mərkəzləri qapana bilər

## Manat böhranı Azərbaycanın ən böyük ticarət mərkəzlərini çökdürür

**Manatın kəskin ucuzlaşması və bu səbəbdən yaranan böhran Azərbaycanın ən böyük iki ticarət mərkəzlərini uçuruma aparır. Söhbət "Sədərək" və "Binə" ticarət mərkəzlərindən gedir.**







Musavat.com-un əldə etdiyi məlumatlara görə, hər iki ticarət mərkəzi bağlanmağa hazırlanır. Buna səbəb bir müddət öncə də yazdığımız kimi, ölkədəki böhran vəziyyətidir.

Hazırda ticarətçilərin böyük hissəsi öz dükanlarını satırlar və ya icarəyə verirlər. Bazarda alverin olmaması tacirlərin banklara olan borclarını daha da artırıb. Bu borcları ödəmək və daha da böyüməsinin qarşısını almaq üçün ticarətçilər öz dükanlarını satmaq qərarına gəliblər. Bu da "Sədərək" və "Binə" ticarət mərkəzlərinin sonunun yaxınlaşmasının anonsunu verir.

Ticarət mərkəzlərində vəziyyətin bu yerə çatmasının əsas səbəbi ölkədəki böhran olsa da, digər bir məqam da qonşu ölkələrdəki vəziyyətdir. Məsələn, Rusiyada hələ də iqtisadi durumun normallaşmaması Azərbaycan bazarına da təsir edir. İstər orada çalışan azərbaycanlıların, istərsə də oradan Azərbaycana gələn tacirlərin cibləri boş qalıb.

### "Rusiya məsələsi alveri "öldürmüşdü", manat da gəlib "basdırdı"

Satıcılar mövcud vəziyyətin səbəbini belə izah edirlər: "Hər şey Rusiya-Ukrayna hadisələri ilə başladı. Rusiyada böhran yaşandı. Orada da 2-3 milyon azərbaycanlı yaşayır. Onlar yaxşı qazana bilməyəndə ailələrinə də yaxşı pul göndərə bilmirlər. Bu da təbii olaraq, bazara öz təsirini göstərir. Bəzi iri dükan sahibləri artıq "Satılır" elanını pəncərələrə yapışdırıblar. "Dağıstan malları" kimi adlandırılan və sırf şimali qafqazlıların alıb istifadə etdikləri malların ticarəti ilə məşğul olan şəxslər var. Rublun manat qarşısında dəyərdən düşməsi şimali qafqazlıların Azərbaycana gəlib, mal almaq maraqlarını azaldıb, onlar artıq gəlmirlər. Manatın da vəziyyəti məlumdur. Onsuz da Rusiya məsələsi alveri "öldürmüşdü", manat da gəlib, "basdırdı".

❑ **Məhəmməd TÜRKMƏN**

# Kitab satışı ilə bağlı qalmaqal səngimir

**Yazıçı Qan Turalının “Doqquz hekayə” kitabı ilə bağlı “Əli və Nino” kitab mağazasının sahibi Nigar Köçərli ilə aralarında olan mübahisə böyüyür. Yazıçı kitabının mağaza tərəfindən qəbul edilməməsi ilə bağlı ittihamlar səsləndirib və bunlar mağaza sahibi Nigar Köçərli tərəfindən qafqazinfo.az-a verilən müsahibədə rədd edilib.**

Onun bildirdiyinə görə, həmin yazarın kitabının satışından heç kim imtina etməyib: “Özü də bunu çox gözəl bilir. Sadəcə, piar üçün bu cür addımlar atır”.

**N.Köçərli yazarın kitabı üçün anbarda yer olmaması iddiasına da aydınlıq gətirdi:** “Bizim vəziyyətimiz çox ağırdır. Azərbaycanda kitab oxunmur. Oxucu kütləsi azdır. Mən demək olar ki, oxucu kütləsinin hamısını üzdən tanıyıram. Azərbaycanda son illərdə məmurlara aid olan hansı kitab evləri açılıbsa, sonradan bağlanıb. Çünki kitab sahəsindən gəlir əldə etmək çətin prosesdir. Bu il ”Əli və Nino"nun fəaliyyətinin 10 ili tamam olacaq. Hesab edirəm ki, bu bayram həm də kədərlidir. Hazırda bizim bir kitab evimiz, 7 kitab şöbəmiz var. 10 illik dönəm üçün bu çox zəifdir. Azərbaycan kimi zəngin bir ölkədə 1000-1500 kitab evi olmalıdır. İstərdim ki, bu sahədə rəqabət olsun".

**Çap Evi Mətbəəsinin rəhbəri Şahbaz Xuduoğlu isə “Yeni Müsavat”a açıqlamasında bu duruma aydınlıq gətirdi. Dedi ki, “Qanun”un kitablarının “Əli və Nino” kitab mağazalarında satışa çıxarılması ilə bağlı tərəflər arasında rəsmi anlaşma var:** “Çünki artıq xeyli müddətdir bu sistem qurulub. Mən hər bir kitabla məşğul olmuram. Biz kitabı çap edirik, sonra mətbəəyə, ardınca yayıma gedir. ”Qanun"da da hər günə iki kitab çıxır. Hər bir kitab evinin marağındadır ki, “Qanun”la daha çox işləsin, çünki “Qanun” onlara kitab verir. Bu mənada bir kitab evinin nəşriyyatla işləməsi daha sərfəlidir, nəinki tək-tək yazarlarla işləməsi. Bizim hər bir kitab evi, kitab dükanı ilə aylıq bir-iki dəfə hesabatımız var. Bunu bir kitab evi ilə nəşriyyatın etməsi daha asandır, nəinki kitab evinin hər bir yazarla hesabat aparması. Bu isə çox mürəkkəbdir. Yalnız Azərbaycanda bir yazar öz kitabını aparıb hansısa kitab evinə verə bilər. Başqa heç bir yerdə belə bir şey yoxdur".

**Müsahibimiz Qan Turalının monopoliya iddiasına da aydınlıq gətirdi. Dedi ki, sadəcə “Qanun”la işləmək bu kitab mağazasına daha sərfəlidir. Çünki “Qanun” birbaşa onların mərkəzinə verir, onlar da bütün kitab mağazalarına yayır:** ““28 May" metrosu ətrafında olan yayğın şəbəkə var. Biz bu şəbəkə ilə münasibətlərimizi qurub işləyirik. Monopoliyadan söhbət gedə bilməz. Çünki Azərbaycanda satılan kitabların azərbaycandilli olanları ümumən 20 faiz təşkil edir. Hər bir kitab evinin nəşriyyatlarla işləməsi daha asandır, nəinki ayrı-ayrı şəxslərlə”.

**Ş.Xuduoğlu Kitab Evinin anbarında Qan Turalının kitablarına yer olmaması ilə bağlı yazarın dediklərinə də aydınlıq gətirdi. Dedi ki, “Əli və Nino”nun anbarı da onların nəşriyyatının yerləşdiyi ərazidədir:** “20 kvadrat metr ərazidə anbarı var. Həqiqətən də çox böyük sıxlıq var. Bu görünür. Bir də yer olmaya bilər. Buna görə gözləmə tələb olunursa, gözləməlidilər. Bizim yazarlar çox emosional reaksiya verirlər. Hər bir təşkilatın işləmə mexanizmi var. Ola bilər ki, Türkiyədən, Rusiyadan kitablar gəlib, tökülüb küçədə. Yazıçılar bura şəxsən müraciət edirsə, yayım qaydalarına riayət etməlidir. Bundan şou düzəltmək lazım deyil. Əgər onların Qan Turalının kitabını satmaq fikirləri olmasaydı, niyə təqdimat üçün yer danışır, vaxtını müəyyən edirdi? Park Bulvarda danışılmışdı, Qan Turalı orda kitab təqdimatı edəcəkdi.

Mən dəqiqləşdirdim. Qan Turalının kitabından kimsə imtina etməyib. Niyə də imtina olunmalıdır? Hansı bir kitab dükanı kitabı satmaqdan imtina eləyə bilər? Əgər o kitab həqiqətən satılmağa layiqdirsə və satılırsa. Yəni bu şeylər mütləq olmalıdır. Biz bəzən bu məsələləri səhv salırıq. Kitabın statistikası xatirinə kitab buraxırıq və deyirik ki, mütləq satılmalıdır, çünki bunun imzası böyükdür. Ola bilər kiminsə jurnalist kimi imzası tanınsın. Amma onun kitabı getmirsə, kitab dükanı ayda 4-5 min kirayə haqqı verir. O hardan verməlidir?"



**Nigar Köçərli:** “Qan Turalı piar üçün bu cür addımlar atır”



**Şahbaz Xuduoğlu:** “Yer olmayanda gözləmə tələb olunursa, gözləməlidilər, bundan şou düzəltmək lazım deyil”



**Qan Turalı:** “Mağaza rəhbərliyi yalana əl atmağa məcbur olub. Guya mən piar etmək istəyirəmmiş. Yalansa...”

**Qan Turalı “Yeni Müsavat”a açıqlamasında barəsində deyilənlərə aydınlıq gətirdi. Dedi ki, “Doqquz hekayə” kitabını satışa çıxarması üçün “Əli və Nino”ya təklif edəndə onlar düz iki dəfə “yerimiz yoxdur” deyə cavab veriblər:** “Sonra bu münasibətləri mətbuatda da çap edildi. Mən məsələni araşdırıqda gördüm ki, sən demə, son dövrlərdə ”Əli və Nino" bir çox yazıçımıza, daha konkret desəm, “Qanun” nəşriyyatında çap edilməyən bütün yazıçılara qarşı eyni münasibəti göstəririmiş. Hamı qanun qarşısında bərabərmiş, lakin “Qanun” daha çox bərabər imiş. Lakin o yazıçılar çox nəzakətli olduqları üçün məsələni mətbuata çıxartmayıblar, ona görə də mənim açıqlamam buxar qazanının ağzını açdı. İndi isə “Əli və Nino” yaranan güclü ictimai qınaqların qarşısında davam gətirməyərək yalana əl atmağa məcbur olub. Guya mən piar etmək istəyirəmmiş. Yalansa... Dünənə qədər “yüksək materiya”dan, kitabın necə bir ali dəyər olmasından, xalqın maariflənməsinin vacibatından danışan insan özünü bazar dəllalı kimi aparır. “Əli və Nino” deyir ki, guya Azərbaycan yazıçılarının kitabları satılmır. Yazıçılarımızın mövqeyi mətbuatda işıqlandırılıb. Məlum olub ki, mağaza bu kitabları anbarlarda saxlayır, oxucular bu kitabı tapmır, sonra isə kitablar qutusu açılmadan yazıçıya geri qaytarılır. Azərbaycan dilini üç qiyməti səviyyəsində bilən insanın Azərbaycan ədəbiyyatı ilə bu cür rəftarına nə ad vermək olar? Sonra da mətbuata deyir ki, guya bizim yazıçılarımızın kitabları satılmır. Axı bu doğru deyil".

**Qan Turalı “Yeni Müsavat”a “Polis qorxusuyla öpüşmək” kitabının qaimələrini təqdim edib. Orda göstərilib ki, mağaza onun 150 kitabını satıb:** “Məsələ artıq ”Doqquz hekayə" miqyasından çıxaraq, ümumən Azərbaycan ədəbiyyatının probleminə çevrilib. Ona görə də “Əli və Nino”dan bundan sonra “Doqquz hekayə” ilə bağlı separat təklif gəlsə belə, mən bununla razılaşa bilmərəm. Mən yaradılan bu güclü yazıçılar hərəkatının, ədəbi həmrəyliyin nəticələrini merkantilcəsinə, obıvatelcəsinə özümə, öz kitabıma xərcləyə bilmərəm. Biz tələb edirik ki, “Əli və Nino” mağazalarını Azərbaycan ədəbiyyatının üzünə açsın. “Əli və Nino”nun kitab bazarında satış payı inhisar üçün nəzərdə tutulan limiti keçib və mağaza bundan istifadə edərək bazara öz şərtlərini diqtə edir. Burda artıq nəinki mənəvi imperativlər, eyni dərəcədə qanunvericilik də pozulur. Biz bu məsələni də müvafiq dövlət qurumunun qarşısında qaldıracağıq. Xahiş edəcəyik ki, “Əli və Nino”nun kitab bazarındakı inhisarçı mövqeyi ilə bağlı araşdırmalar aparsın və nəticəsi ilə bağlı ictimaiyyəti məlumatlandırsın".

❑ **Sevinc TELMANQIZI**

## Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd edildi

**1 iyun Azərbaycanda da Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. Bu günü qeyd etmək üçün ölkənin müxtəlif yerlərində uşaqlar üçün əyləncəli tədbirlər, bayram şənlikləri təşkil olunur. “Yeni Müsavat” qəzetinin redaksiyası yaxınlığında yerləşən “Baby star” uşaq bağçasında keçirilən bayram şənliyi də rəngli görüntüləri və balacaların şən mahnıları ilə diqqət çəkib. Eyni zamanda həm də bağçanın buraxılış tədbiri keçirilib. Bayram tədbiri həm valideynlər, həm də bağçanın yerləşdiyi ərazidə yaşayan sakinlər tərəfindən maraqla qarşılanıb.**






Qeyd edək ki, BMT Baş Assambleyası tərəfindən 1950-ci il iyunun ilk gününün Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunması qərara alınıb.

Həmin gün təşkil olunan “Qadınların Beynəlxalq Konfransı”nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib.

Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. Dünyanın əksər ölkələrində olduğu kimi, bu tarix Azərbaycanda da qeyd edilir.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 118 (6146) 2 may 2015

# Zəng və mesajlar pulsuz olacaq

Şimali Koreyadakı bütün GSM operatorları abunə haqqı ödəməyəcəklər. Hər kəs istədiyi qədər danışa və mesaj yaza biləcək. Şimali Koreyada internetdən istifadənin sürətlə artması nəticəsində GSM operatorları internet paketləri üzərində daha çox çalışmağa başlayıblar. Ölkədəki ən böyük 3 operatordan biri olan KT internet üzərində kampaniyaya başladıqdan sonra digər şirkətlərlə də danışmaq və mesajlaşmaq üçün pul ödənilməsinə ehtiyac duyulmayacaq.





## Maşın kolleksiyasını satışa çıxardı

25 ildir qazandığı pullarla maşın alan ingilis diş həkimi Ceyms Hull bu günə qədər aldığı bütün avtomobilləri satışa çıxarıb. İngilis diş həkiminin kolleksiyasında 467 ədəd klassik maşın, 300 ədəd pedallı kiçik avtomobil var. Maşın azarkeşi olan C.Hull ölkədə ilk dəfə qurulan diş kosmetikası şirkətinin də sahibidir. Hullun şirkəti dişlərin düzəldilməsi və ağardılması üçün kosmetik vasitələr hazırlayır. Öz şirkətinin mallarını sataraq ölkənin ən varlı adamlarından birinə çevrilən C.Hull maşın kolleksiyası ilə diqqət mərkəzindədir. O, bugünlərdə maşın kolleksiyasını satışa çıxarıb. Kolleksiyasını 100 milyon sterlinqə satışa çıxaran diş həkimi bütün maşınları eyni vaxtda alacaq adamı gözləyir. Hillun kolleksiyasında məşhur müğənni Elton Jona məxsus "Bentleyve 4" markalı maşın 4 milyon dollar dəyərindədir. Nadir tapılan "Jaguar Type-D" markalı maşın da kolleksiyadakı maşınlar sırasındadır.

# 40 minlik qızıl saat taxan it

Çinin ən nəhəng şirkətlərindən biri olan "Dalian Wanda" şirkətinin rəhbərinin oğlu internetdə öz itinin şəklini paylaşıb. Lakin bu şəkil böyük narazılığa səbəb olub. İnsanların etirazına səbəb Keke adlı itin hər iki pəncəsində qızıl Apple saatlarının olmasıdır. Bu saatların qiyməti isə nə az, nə çox 250 min yuandır (təxminən 40 300 dollar) ki, bu da Çində varlılarla kasıblar arasındakı fərqi bir daha göstərir. Şəkillər itin adına yaradılmış bloqda paylaşılıb. Sahibi Vanq hətta itin adından status da yazıb: "Mənim yeni saatlarım var! Əslində mənim 4 saatım olmalı idi. Amma bu, çox kobud görünəcək deyə, mən sadəcə ikisini taxdım. Birini isə ona görə taxmadım ki, bu, mənim statusuma uyğun olmaz. Bəs sizin necə, heç olmasa bir saatınız varmı?"

Bu paylaşım sosial şəbəkə istifadəçilərini çox qəzəbləndirib. Çində varlılarla kasıblar arasında necə böyük bir fərqin olduğu isə şərhlərdən də aydın görünür. İzləyicilərdən biri buna qəzəblənərək belə bir şərh də yazıb: "Hələ də dövrümüzdə yemək tapa bilməyən, aclıqdan əziyyət çəkən insanların olduğu bir vaxtda qızıl qaşıqlara pul xərcləyən axmaqlar var. Dünya düzələn deyil".

Başqa bir sosial şəbəkə istifadəçisi isə "hətta itin belə qızıl Apple saatı var. Amma mənim heç adi Apple sport saatım da yoxdur" yazıb.





## Meteorit oğruları tutuldu

Argentinanın Çako şəhərində yaşayan 4 nəfər meteorit oğurladığı üçün həbs edilib. Polislər yolda saxlanılan böyük yük maşınının baqajından 200 parçadan çox meteorit parçası tapıb. Hadisə ilə bağlı 4 nəfər nəzarətə götürülüb. Meteorit şəhərdə nəzarət altında saxlanılır. Çako şəhərində "Camplo del Cielo" adlı 1300 kvadrat kilometr ərazisi olan meydanda 4 min il əvvəl düşdüyü güman edilən meteorit parçaları saxlanılır. Ən böyük meteorit parçası 1967-ci ildə tapılmışdı. Argentinadakı 37 ton ağırlığı olan "El-Şako" dünyada bu günə qədər tapılan ən böyük meteoritdir.

Dünyada ən böyük meteorit Namibiyadadır. Habo adlı daşın ağırlığı 60 tondur.



## Günəş enerjisi ilə çalışan təyyarə

Günəş enerjisi ilə dünyanı dolaşmağı hədəf seçən "Solar İmpulse 2" təyyarəsi ən çətin uçuşunu gerçəkləşdirmək üçün Çindən havaya qalxıb. Təyyarə 8 min kilometr yol qət edərək Havay adalarında yerə enəcək. Bu günə qədər maksimum 20 saat havada qalan solar impulsun 120 saat havada qalacağı gözlənilir. Gündüz yığdığı günəş enerjisi ilə gecə də havada qala biləcək. 9 martda Birləşmiş Ərəb Əmirliklərindən havaya qalxan təyyarə bu günə qədər 5 dəfə yerə enərək Çinə çatıb.




**QOÇ** - Müəyyən gərginliklə müşahidə olunsa da, bu, nəzərdə tutduğunuz planların reallaşmasında ciddi maneə yaratmayacaq. Saat 15-18 aralığında qarşınıza çıxan şanslardan yararlanmağa çalışın.

**BUĞA** - Qərar verərkən mövcud situasiyaları mütləq nəzərə alın. Atdığınız addımları dəfələrlə götür-qoy edin. Axşama yaxın kimlərsə sizi sevindirə bilər. Gecə mütləq öz evinizdə qalın.

**ƏKİZLƏR** - Təxminən saat 19-a qədər nəzərdə tutduğunuz bütün ədalətli işlərdə müvəffəqiyyətə yaxın olacaqsınız. Sonrakı saatlarda isə davranışlarda özünüzü tənzimləməlisiniz. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Saat 14-ə qədər gözlənilən gərginlikdən sovuşa bilsəniz, günün qalan vaxtı rahat keçəcək. Buraxdığınız səhvlərə haqq qazandırmaqdansa, onları düzəltməyə çalışın. Bəxtinizdə pul da var.

**ŞİR** - Səbəbsiz yerə qızışmaq, daima gileylənmək sizə zərərdir. Gərginliyinizi azaltmaq üçün başınızı işlə qatın. Bir də nəzərə alın ki, çoxuna baxanda sizin vəziyyət xeyli yaxşıdır.

**QIZ** - Çox güman ki, xeyli vaxtdan bəri görmədiyiniz adamlarla rastlaşacaqsınız. Bu amil sizi xeyli rahatlandıracaq. Ulduzlar nahardan sonra sizə başqa sürprizlər də vəd edir.

**TƏRƏZİ** - Kənardan dəstəyin olacağını daha çox hiss edən ulduzlar boş dayanmamağı məsləhət görür. Nə qədər aktiv olsanız, uğurlarınız da bir o qədər artacaq. Bu gün uzaq yola çıxmayın.

**ƏQRƏB** - Maraqlı hadisələr yolunuzu gözləyir. Amma bu təqvimdə diplomatik qabiliyyətinizi maksimal tərzdə yüksəltməli, öz söhbətlərinizlə hamının diqqətini cəlb etməlisiniz. Gərginlikdən qurtulacaqsınız.

**OXATAN** - Təxminən saat 17-yə qədər yalnız adi işlərin həlli ilə məşğul olun. Risk və ya qeyri-ənənəvi addımlar uğursuz ola bilər. Axşama doğru isə ürəyinizə yaxın adamlarla bir yerdə olun.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq, perspektivli sövdələşmələrdə iştirak üçün səmərəli vaxtdır. Bu, ay ərzində çox arzunuzun reallaşmasına xidmət edə bilər. Gün şüasından ehtiyatlanın.

**SUTÖKƏN** - Böyük dəyişiklər astanasındasınız. Ruhdan düşməyə heç bir lüzum yoxdur. Kiminsə xətrinə dəyməyin. Əksinə, hamıya dəstək verin ki, onlar da gələcəkdə sizinlə həmdəm olsunlar.

**BALIQLAR** - Ulduzların düzümü daha çox maliyyə məsələlərində uğurlara nail olacağınızdan xəbər verir. Ələlxüsus da nahardan sonra büdcənizi artırmaq üçün bütün mümkün variantlardan yararlanmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Zibildən çıxan Apple

Amerikanın Los-Ancles şəhərində yaşayan bir qadın əri öldükdən sonra təmizlik işlərinə başlayıb. Evin qarajındakı lazımsız əşyaları atan qadın oradakı "Apple" markalı köhnə kompüteri zibilə atıb. Zibilləri yenidən istifadə üçün seçən firmalardan biri isə 1976-cı ildə istehsal edilən "Apple I" markalı kompüterin çox dəyərli olduğunu başa düşüb. Qadının atdığı kompüter ilk dəfə satışa çıxarılan Apple markalı 200 kompüterdən biri imiş. Şirkət sahibləri 200 min dollar dəyəri olan kompüterin sahibini taparaq ondan pulla alıblar. Amerikalı qadına 100 min dollar veriləcək.




Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300